**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CƏNUBİ AZƏRBAYCANDA MİLLİ MƏTBUAT VƏ ƏDƏBİ FİKRİN İNKİŞAF MƏRHƏLƏLƏRİ
***(1978-1979-cu illər İran inqilabından sonrakı dövr)***

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: filologiya

İddiaçı: **Pərvanə Hacı qızı Məmmədova**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | filologiya elmləri doktoru, professor<br>**Teymur Əkbər oğlu Əhmədov** |
| Rəsmi opponentlər: | filologiya elmlər doktoru, professor<br>**Vüqar Mikayıl oğlu Əhməd** |
| | filologiya elmlər doktoru, professor<br>**Elman Hilal oğlu Quliyev** |
| | filologiya elmlər doktoru, professor<br>**Tofiq Əbdüləziz oğlu Əbdülhəsənov** |
| | filologiya elmlər doktoru, dosent<br>**Fərman Yunis oğlu Xəlilov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>______________________ | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi:<br>______________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri:<br>______________________ | filologiya elmləri doktoru, dosent<br>**Əlizadə Bayram oğlu Əsgərli** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İki əsrə yaxın bir dövrdə vahid Azərbaycan xalqının ədəbiyyatı, eləcə də mədəniyyətinin digər sahələri fərqli inkişaf yolu keçmişdir. Zəngin folklor qaynaqlarına, milli bədii düşüncə yaddaşına sahib olan bir xalqın ədəbiyyatı əsarətində olduğu rejimin bütün qadağalarına baxmayaraq, ortaq milli dəyərlər zəminində inkişaf etməklə yanaşı, məlum tarixi-ictimai gedişatla əlaqədar müəyyən durğunluq və təbəddülatlara məruz qalmışdır. Şimalda baş verən milli-mədəni dirçəlişin əks-sədası Cənubda milli ədəbi hərəkatın aparıcı mənbəyi olmuş, onun Avropa ədəbi-mədəni dəyərləri zəminində inkişafına təkan vermişdir.

Azərbaycan Çar Rusiyası tərəfindən işğal olunduqdan sonra Şimalda ədəbi-mədəni həyat mütərəqqi rus ictimai fikrinin təsiri ilə Avropa mənəvi dəyərlərinə, ictimai-siyasi institutlarına doğru yön almışdır. Şimalda milli azadlıq ideyalarının dalğaları Cənubda da öz əksini tapmışdır. Konservativ düşüncə tərzi ilə yeni ideallərın qarşıdurması ədəbi prosesin ideya-estetik axtarışlarına da yön vermiş, klassik ənənələrlə bədii ifadə axtarşlarının mübarizəsi mətbuatın aparıcı problemlərindən olmuşdur.

1978-1979-cu illər İran İnqilabından sonra mətbuatda ədəbi prosesın yeni inkişaf mərhələsi başlayır. Milli dildə mətbuatın say və məzmun etibarilə intibahı uzun illər xalqın milli düşüncə enerjisinin ortaya gəlməsi idi. Bu reallıq mətbuatın baş mövzusu kimi milli özünədərki müəyyən etdi.

XX əsr boyu istər Cənubda, istərsə də Şimalda Azərbaycan xalqının tarixi milli azadlıq uğrunda mübarizə tarixi olmuşdur.

Şərqdə ilk Demokratik Respublikanı yaradan xalqın azadlıq əzmi heç zaman sınmamış, nəhayət, Şimalda Azərbaycan Respublikasının bərpası Cənubda onun həyatının bütün sahələrinə güclü təsir etmiş, milli mədəniyyətin yeni istiqamətdə inkişafına təməl olmuşdur.

İranda Pəhləvilərin, Şimali Azərbaycanda isə bolşeviklərin hakimiyyətə gəlməsi, Türkmənçay müqaviləsi əsasında parçalanan Azərbaycanın tikanlı məftillər ilə əlaqələrinin kəsilməsi və s.

Azərbaycan xalqının sosial-siyasi və mədəni-ədəbi durumunda böyük dəyişikliklər yaratdı. Nəticədə Cənubun və Şimalın həyatında çox ağrılı-acılı mərhələ yarandı. İki sahildə yerləşən bir xalqın dil və ədəbiyyatında iki qola ayrılma prosesi başladı.

Şimali Azərbaycanda Cənubi Azərbaycanla bağlı elmi məktəb yaranmış və onun nəzəri praktik ənənələri formalaşmışdır. Buraya Cənubi Azərbaycanda baş verən tarixi gedişat zəminində humanitar sahələrin bütün istiqamətlərdə tədqiqi daxildir. Tarixçi, filosof, etnoqraf, sənətşünaslarla və dilçilərlə yanaşı, ədəbiyyatşünas alimlərin araşdırmaları sovet dönəmində olduğu kimi, bu gün də davam etməkdədir.

Sovet humanitar siyasətinin çöküşü ilə Cənubi Azərbaycan ədəbiyyatının tarixini öyrənməkdə yeni mövqedən yanaşma, tədqiqat aparmaq üçün obyektiv prinsiplər yarandı. Sovet senzurasının aradan qalxması ilə Arazın o biri tayında baş verən hadisələrin öyrənilməsinin Şimalda mövcud olan SSRİ dövlətinin təyin etdiyi siyasətin çərçivələri aradan götürüldü.

Sovet dönəmində Şimalda Cənub mövzusu sovet imperiyasının ideoloji qəlibləri və marksist-metodoloji prinsipləri əsasında tədqiq olunurdu. İranla SSRİ-nin siyasi münasibətləri də Cənubla bağlı aparılan ideoloji siyasətin, ədəbi-bədii yaradıcılığın zəminindən kənar deyildi. Kənar olanlar isə ya qapadılır, ya da siyasi senzuranın verdiyi "normalar" çərçivəsində fəaliyyət göstərirdi.

Cənubda yaranan ədəbiyyatın tədqiqi sahəsində akademik Mirzə İbrahimovun rəhbərliyi ilə yaradılan şöbənin də fəaliyyəti dövründə müəyyən yasaqlar mövcud olmuşdur. Bunlara baxmayaraq, son iki əsrdə Cənubda yaranan ədəbiyyatın öz səciyyəsi, ideya-estetik prinsipləri olan inkişaf yolunun "ədəbiyyat tarixi" janrında öyrənməyin sanballı nümunəsi konsepsiyası çoxdilli antologiyalar və ədəbiyyat tarixi kimi nəşrlərdə öz əksini tapmışdır.

Müstəqil Azərbaycan Respublikasının yaranması ilə humanitar fikirdə bərqərar olan elmi-demokratik meyarlar vahid Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi İranda azərbaycanlıların ana dilində yaratdığı mədəniyyətin, o cümlədən ədəbiyyatın yeni elmi meyarlar və əldə edilmiş zəngin bədii

materiallar əsasında tədqiqini zəruri etdi. Cənubda ədəbiyyatın son üç onilliklərdəki elmi mənzərəsini yaratmaq və ədəbi örnəklərin tədqiqi üçün faktik elmi və bədii materialın əlavə edilməsi mütəxəssislər üçün açıqdır. Digər tərərəfdən, 1978-1979-cu illər İran İnqilabı ilə Şimalda Müstəqil Azərbaycan Respublikasının yaranmasının diqtə etdiyi siyasi reallıqlar ədəbi-mənəvi sərvətlərin öyrənilməsinə zəmin yaratdı. Azərbaycançılıq xalqımızın milli ideologiyası kimi ədəbi-ictimai fikir tariximizdə formalaşma prosesi keçirdi, nəhayət, Azərbaycan Respublikasının ideologiya konsepsiyasına çevrildi.

Nüfuzlu tədqiqatçıların yekdil bir rəyi mövcuddur ki, o ictimai-siyasi fikir tarixindən təcriddə ədəbiyyat tarixi də mövcud deyil. Azərbaycan ədəbiyyatının son iki əsrdəki tarixi istər Şimalda, istərsə də Cənubda ictimai gedişatın zəminində təkamül prosesi keçirmişdir. İctimai-siyasi reallıqlar fərqli olduğu kimi, ədəbi fikrin inkişaf prosesndə də kəsişən və ayrılan məqamlar olmuşdur.

Marksist-leninçi ədəbiyyatşünaslığın sinfilik, partiyalılıq meyarları aradan götürüldükdən sonra Cənub ədəbiyyatının obyektiv tarixi həqiqətlərin işığında, ədəbiyyatın öz bədii təkamül prosesi zəminində öyrənilməsi üçün münbit elmi zəmin yaranmışdır. Xüsusən mətbuatın və digər nəşrlərin geniş intişar tapması yaxın tarixi ədəbi prosesdə mətbuatın ədəbi şəxslərin birgə fəaliyyətinin səmərəli nəticəsini ortaya qoydu. Mətbuat, kitab nəşri sahəsindəki nailiyyətlər ədəbi prosesdəki axtarışların, bədii yeniliklərin istiqamətlərini müəyyən etdi. Anadilli mətbuatla yanaşı, Türkcə düşünüb farsca yazan müəlliflərin farsdilli mətbu orqanlarında da xidmətləri danılmazdır. Onlar ictimai fikrin və ədəbiyyatın inkişafına əhəmiyyətli təkan vermişlər.

Cənub ədəbiyyatı tarixini farsdilli ədəbiyyatın, o cümlədən farsdilli mətbuatın kontekstindən kənar öyrənilməsi Cənubdakı tarixi ədəbi prosesin obyektiv elmi mənzərəsini yaratmağa mane olardı. Tarixi obyektiv səbəblərdən uzun zaman kəsiyində fars dili ədəbi dil kimi hakim mövqedə olduğu kimi, yaxın iki əsrdə də bu ənənənin təsiri təkzibedilməzdir. Hakim fars dilində yazan azərbaycanlı qələm sahiblərinin bədii-publisist əsərlərində milli düşüncə aydın göründüyü kimi, fars dilindəki "türk düşüncəsi",

"türk üslubu" elmi araşdırmalarda təsdiq olunmuşdur. Bu mənada Cənubda milli mətbuatın və tarixi ədəbi prosesin inkişaf səciyyəsi İranda yaranan mətbuat tarixinin fonunda öyrənilməlidir.

Bu səbəbə görə də Cənubi Azərbaycanda mətbuatla ədəbi prosesin qarşılıqlı təmasda inkişafını izləmək üçün Arazın o tayındakı milli mətbuatı bu ölkənin ədəbi-mədəni və ictimai-siyasi prosesləri zəminində öyrənmək zərurəti yaranır.

Dünyada baş verən demokratik proseslərə baxmayaraq, bu gün də Cənubda milli mətbuatın azad inkişafından danışmaq tezdir. Milli mətbuatın tarixini ədəbiyyatın inkişafına paralel öyrənməyin həm milli-siyasi, həm də ədəbi-bədii əhəmiyyəti vardır. Çünki Arazın o tayında mətbuat siyasi hadisələrin, milli hərəkatın gur axarında mövcud olmuş, ədəbiyyatın məzmunu ilə yanaşı, onun yeni ifadə imkanlarının, janrlarının, milli-ədəbi dilin inkişafının təməli olmuşdur. Tarixi faktlar göstərir ki, böyük ədəbi hərəkatlar, ədəbi mərhələlər, konkret mətbu orqanlarının və nəşrlərin zəminində formalaşmışdır.

Cənubi Azərbaycanda mətbuat milli hərəkatın aparıcı tribunası olmuş, ədəbi prosesin inkişaf yönlərini də mətbuatda əksini tapmış problemlər diqtə etmişdir.

Azərbaycan ədəbiyyatşünaslığı Cənub ədəbiyyatının tədqiqi sahəsində böyük təcrübə əldə etmişdir. Cənubi Azərbaycan ədəbiyyatının və ədəbi prosesinin elmi şəkildə araşdırılması sahəsində ilk addım Cənubi Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı Mirzə İbrahimovun adı ilə bağlıdır. Akademik Mirzə İbrahimovun rəhbərliyi ilə Cənub ədəbiyyatının tədqiqi ciddi elmi məzmun kəsb etdi. Dördcildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" [1] Cənubda ədəbiyyat tarixi haqqında mükəmməl təsəvvür yaratdı. Bunun ardınca ikicildlik "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" [2] ədəbiyyat tarixi prinsipləri əsasında yazılmış tədqiqatdır. Bu ikicildlik Cənub ədəbiyyatının tədqiqi ilə nəşri

---

[1] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [dörd cilddə] / – Bakı: Elm, – 1983-1994-cü illər.

[2] Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XIX-XX əsrlər): [iki cilddə] / – Bakı: Nurlar, – c. 1. – 2009. – 480 s.; Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XIX-XX əsrlər): [iki cilddə] / – Bakı: Qanun, – c. 2. – 2013. – 680 s.

sahəsindəki elmi-metodoloji nailiyyətlərin yekunudur.

Alimin inqilabdan sonra Cənubda yaranan ədəbiyyatın nəşri əsasında yazıb "Azərbaycan"[3] jurnalında və "Ədəbiyyat qəzeti" ndə[4] dərc etdirdiyi məqalələri 1978-1979-cu illər inqilabına qədərki və inqilabdan sonra İranda yaranan azərbaycandilli ədəbiyyatı və mətbuatı obyektiv elmi mövqedən dəyərləndirməyə, bu ədəbiyyatın əsas istiqamətləri, mövzu və ideyalar aləmi barədə Şimal oxucusuna dolğun informasiya verməyə xidmət edir.

Cənubi Azərbaycan ədəbiyyatı tədqiqatçılarından Sabir Əmirov öz tədqiqatlarında[5] Cənubda ədəbiyyat və milli özünüdərk problemini dolğun, sistemli şərh etmiş, inqilabdan sonra yaranan ədəbiyyatın tarixi hadisələrlə şərtlənən fərdi xüsusiyyətlərini araşdırmışdır. Sözügedən dövrdə Almaz Əliqızı[6] konkret tarixi dövrdə Cənub ədəbiyyatının inkişaf mərhələlərini şərtləndirən ictimai və ədəbi amilləri müəyyən etmişdir.

1978-1979-ci illər İran İnqilabından sonra Cənubda yaranmış ədəbiyyat barədə müxtəlif zamanlarda Sabir Əmirov, Nazim Rizvan, Teymur Əhmədov, Vəfa Əliyev, Ruqiyyə Qəmbərqızı, Vüqar Əhməd, İslam Qəribli, Pərvanə Məmmədova, Esmira Şükürova, Mahmizər Mehdibəyova, Lətifə Mirzəyeva, Fikrət Əhmədov və başqa tədqiqatçılar münasibət bildirsələr[7] də, həmin

---

[3] İbrahimov, M. Cənubda dirçəliş // – Bakı: Azərbaycan, – 1980. № 1, – s.35-47. İbrahimov, M. Ümid və kədər poeziyası // Azərbaycan, – 1988. № 4, – s.132-138.

[4] İbrahimov, M. "Yol" jurnalı axtarışda // Ədəbiyyat qəzeti. – 1991, 23 oktyabr; Qaranlıqdan işığa // Ədəbiyyat qəzeti. – 1982, 27 avqust

[5] Əmirov, S. Güney Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990) / S.Əmirov. – Bakı: Elm, – 2000

[6] Məmmədova, A. Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər) / A.Məmmədova. – Bakı: – 1998

[7] Əmirov (Nəbioğlu), S. Səhənd / S.Əmirov (Nəbioğlu). – Bakı: Nurlan, – 2006; Əmirov (Nəbioğlu), S. Bu karvanın yolu Güneyədir / S.Əmirov (Nəbioğlu). – Bakı: Nurlan, – 2005; Rizvanov, N. Cənubi Azərbaycan ədəbiyyatıhın yeni inkişaf mərhələləri / N.Rizvanov. – Bakı: Səda, – 2007; Qəmbərqızı, R. Bulud Qaraçorlu "Səhənd və onun poeziyası" (Səhəndin "Sazımın sözü" kitabına ön söz) / R.Qəmbərqızı. – Bakı: Yazıçı, – 2000; Əliyev, V. Hürriyyət fədaisi / V.Əliyev. – Bakı: – 1984; Əhmədov, T. Cənubi Azərbaycan ədəbiyyatı (Poeziya) / T.Əhmədov. – Bakı: – 2007; Qəribli, İ. Ədəbiyyat sərhəd tanımır (Cənubi Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı məqalə və oçerklər) /

dövrdə istər mətbuatda, istərsə də kitab və toplularda dərc olunan folklor, klassik irs, poeziya və nəsr nümunələri, bu ədəbiyyatın janrları, sənətkarlıq problemləri və ədəbiyyatla mətbuatın qarşılıqlı əlaqələri müstəqil araşdırma mövzusu olaraq ilk dəfə tədqiq edilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti 1978-2015-ci illərdə Cənubi Azərbaycanda mövcud olan mətbuatla ədəbi fikrin qarşılıqlı inkişaf tarixidir. Buraya həmin illərdə ana dilində nəşr olunmuş çap məhsulları - qəzetlər, jurnallar, kitablar, toplular, bülletenlər və s. daxildir.

Azərbaycan türkləri tək Cənubi Azərbaycanda deyil, demək olar ki, bütün İran boyu məskunlaşıblar. Bu da təbii haldır ki, İranda Cənubi Azərbaycan sınırlarından kənarda azərbaycanlılara məxsus ədəbiyyat, mətbuat da araşdırmaya cəlb olunur. Cənubda fəaliyyət göstərmiş çoxsaylı mətbuat orqanlarında toplu və kitablarda nəşr olunmuş poeziya, nəsr, nümunələri folklor və klassik ədəbiyyat örnəkləri fonunda tarixi-ədəbi proses, bu prosesdə mətbuat və digər nəşrlərlə ədəbiyyatın məzmununda, poetik sistemindəki yeniliklərin araşdırılması tədqiqatın əsas predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada əsas məqsəd göstərilən tarixi mənbələrdə Cənubi Azərbaycanda mətbuat və ədəbi-bədii fikrin qarşılıqlı təsir prosesini öyrənməkdir. Bu məqsədlə müəllif aşağıdakı problemləri həll etməyi qarşıya qoyur:

- Cənubda milli mətbuatın yaranmasını təmin edən və onun intensiv inkişafına mane olan ictimai-siyasi məsələləri üzə çıxarmaq;

- Farsdilli mətbuatda Azərbaycan türk düşüncəsinin yerini müəyyən etmək;

---

İ.Qəribli. – Bakı: Elm və təhsil, – 2014; Əhməd, V. Cənubi Azərbaycan poeziyası (1950-2010) / V.Əhməd. – Bakı: – 2014; Məmmədli, P. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər,portretlər / P.Məmmədli. – Bakı: Sabah, – h. 1. – 2015; Məmmədli, P. Cənubi Azərbaycan ədəbiyyatı məsələləri / P.Məmmədli. – Bakı: Sabah, – 2015; Şükürova (Fuad), E. Güney Azərbaycan epik şeiri / E.Şükürova (Fuad). – Bakı: Nurlan, – 2016; Mehdibəyova, M. Cənubi Azərbaycan mühacirət nəsri (1947- 1990-cı illər) / M.Mehdibəyova. – Bakı: Nurlar, – 2007; Mirzəyeva, L. Sönməz (Biblioqrafiya) – Bakı: – 2014; Süleymanoğlu, F. Səhənd (mühiti, həyatı və yaradıcılığı) / F.Süleymanoğlu. – Bakı: Nurlar, – 2017 və s.

- Milli azadlıq ideyalarının böyük xalq hərəkatına çevrilməsində mətbuatın, eləcə də ədəbiyyatın rolunu tədqiq etmək;

- Xalqın milli yaddaş daşıyıcısı olan şifahi xalq ədəbiyyatının toplanması və nəşrində, tədqiqində konkret mətbu orqanlar ətrafında çalışanların fəaliyyətini öyrənmək;

- Cənubi Azərbaycanda milli mətbuat, eyni zamanda, ədəbiyyatın inkişafında xüsusi xidmətləri olan Cavad Heyət, Həmid Nitqi, Qulamhüseyn Saidi, Həbib Sahir, Səhənd, Rza Bərahəni, Məhəmmədtağı Zehtabi, Məhəmmədəli Fərzanə, Həmid Məmmədzadə, Savalan, Sönməz kimi elm, ədəbiyyat və sənət adamlarının böyük vətəndaşlıq mahiyyəti olan fəaliyyətlərini tədqiq etmək;

- Arazın o biri tayında ədəbi prosesin təmsilçiləri olan şair, yazıçı və publisistlərin məhdud bir şəraitdə boy verən yaradıcılıq fərdiliklərini araşdırmaq;

- Cənubda poeziya və nəsrin inkişaf fərdiliyini, klassik ənənələrin zəminində yaranan ədəbiyyatla yanaşı, bu janrlarda baş verən poetik yenilikləri üzə çıxarmaq;

**Tədqiqatın metodları.** Tədqiqat işi elmi-nəzəri sahədə sınaqdan çıxmış tarixi-müqayisəli metod əsasında yazılmışdır. Tədqiqatın metodoloji və nəzəri əsaslarını filologiya elmi sahəsindəki milli və ümumbəşəri dəyərlər, ədəbi-bədii materialın sistemli şəkildə araşdırılması təşkil edir. Tədqiqat zamanı obyektiv elmi həqiqəti aşkara çıxarmağa imkan verən tarixilik prinsipinə ardıcıl riayət edilmiş, Cənubda mətbuatla ədəbiyyatın qarşılıqlı inkişaf tarixi və tarixi-müqayisəli təhlil üsulundan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- 1978-1979-cu illər İran inqilabından sonrakı dövr Cənubi Azərbaycanda ədəbiyyatın və mətbuatın tarixi inkişaf mərhələlərində ən mühüm dövrlərdən birini təşkil edir;

- Cənubda ötən əsrin əvvəllərində formalaşmağa başlayan milli müəyyənlik düşüncəsi 20-40-cı illərdə dinamik inkişaf mərhələsinə qədəm qoymuş, artıq 1945-1946-cı illərdə solçu-populist müstəviyə, 1990-cı illərdə isə yenidən millətçiliyə, kimliyə

keçmiş inqilabdan sonra anadilli mətbuatın və ədəbiyyatın formalaşmasına münbit zəmin hazırlamışdır;

- Cənubda ötən əsrin 40-cı illərindən başlayaraq daim zirvədə olan Həsrət ədəbiyyatının yerini yarım əsrdən sonra özündə kimlik axtarışını ehtiva edən dirəniş, müqavimət ədəbiyyatı tutmuşdur;
- Cənubi Azərbaycan mətbuatının səhifələrində uzun müddət ana dili və mədəniyyətindən uzaq düşmüş Azərbaycan xalqının tarixi, mədəniyyəti, dil və ədəbiyyatının işıqlandırılması və kütləviləşməsinə maraq göstərilmişdir;
- Mətbu orqanları və ara-sıra çap olunan kitablar folklorun nəşri, tədqiqi və təbliğinə xüsusi yer verməklə yazılı ədəbiyyatın lüğət tərkibinin milliləşməsinə və Cənubda işlədilən ədəbi dilin ərəb-fars tərkiblərindən təmizlənməsinə kömək etmişdir;
- Cənublu ziyalılar mətbuat səhifələrində dərc etdirdiyi materiallarla o taylı-bu taylı Azərbaycan tədqiqatçılarının axtarışlarını xalqa çatdırmış, ədəbiyyat tariximizin dolğunlaşmasına və bütövləşdirilməsinə xidmət etmişlər;
- 1978-1979-cu illər İran inqilabından sonra Cənubi Azərbaycanda ədəbiyyatın və mətbuatın müxtəlif problemləri araşdırılmışdır;
- Anadilli mətbu orqanları Azərbaycan türklərinin milli şüurunu formalaşdırmış, kimliyini itirmiş xalqın özünəqayıdışına səbəb olmuş və Ana dilində yazıb yaradan yeni ədəbi nəslin yaranmasına təkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Mövzunun ilk dəfə sistemli işlənməsi əslində dissertasiyanın elmi yeniliyini şərtləndirən başlıca məqamdır. Bu yenilik elmi işin aşağıdakı məzmun və mündəricəsində özünü göstərmişdir:

- Dissertasiyada çoxsaylı mətbuat orqanlarında nəşr olunmuş ədəbiyyat məsələləri, inqilabdan sonra Cənubda yaranan ədəbiyyat ilk dəfə olaraq sistemli elmi araşdırma obyektinə çevrilmişdir;
- Tədqiqatda Cənubda yaranan ədəbiyyat və mətbuatın inkişafı konkret olaraq tarixi bir dövrün hüdudları çərçivəsində ilk dəfə olaraq sistemli şəkildə araşdırılır;
- Mətbuat tarixi ədəbi-bədii tərəqqinin təməli kimi təhlil olunur;

- Tədqiqat işində inqilabdan sonra Cənubda yaranan ədəbiyyatın özünəməxsus inkişaf qanunauyğunluqları aşkara çıxarılaraq ilk dəfə elmi təhlilə cəlb olunur;

- İlk dəfə olaraq müasir nəsr, poeziya və tənqid janrlarının məzmununda, poetikasında baş verən proseslər öyrənilir;

- Folklorun mətbuatda sistematik verilib öyrənilməsi ilk dəfə təhlil olunur;

- Klassik ədəbi irsin mətbuatda yeri və tanıdılması probleminə ilk dəfə aydınlıq gətirilir;

- Cənubi Azərbaycanda ana dilinin, milli ədəbiyyatın yaşadılmasında misilsiz fədakarlıq göstərən Cavad Heyət, Məhəmmədəli Fərzanə, Məhəmmədtağı Zehtabi, Qulamhüseyn Beqdeli, Həmid Məmmədzadə, Əli Kamali Rza Bərahəni və b. kimi 20-dən artıq yazıçı və şairin yaradıcılığı və ədəbiyyatşünaslıq fəaliyyəti ilk dəfə məhz bu əsərdə araşdırılıb dəyərləndirilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Cənubi Azərbaycan ədəbiyyatı vahid Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsidir. Buna görə dissertasiya 1978-1979-cu illər İran inqilabından sonra Cənubi Azərbaycanda ədəbiyyatın və mətbuatın müxtəlif problemlərinin araşdırılması ilə məşğul olan mütəxəssislər üçün mühüm elmi əhəmiyyətə malikdir və bu sahədə çoxsaylı gələcək tədqiqatlar üçün zəmin rolu oynaya bilər. Xüsusilə sözügedən dövrdə Cənubi Azərbaycan poeziyasını, nəsrini, folklor və klassik ədəbi irs məsələlərini anadilli mətbuatda tədqiq edənlər dissertasiyadan geniş faydalana bilər. Ümumiyyətlə, dissertasiya filoloq alimlər, tarixçilər, türkoloqlar, şərqşünaslar, Azərbaycan dili və ədəbiyyat müəllimləri, ali məktəblərin filologiya və jurnalistika fakültələrinin tələbələri, ədəbiyyatla maraqlananlar üçün faydalı olar.

Dissertasiyada milli mətbuatın qaynaqlarından olan farsdilli mətbuat tarixinə ətraflı yer ayrılması anadilli mətbuatın formalaşması prosesi haqqında təsəvvür yaradır. Cənubda mətbuat tarixini öyrənənlər üçün göstərilən elmi informasiyadan mütəxəssislər, doktorant və magistrlər bəhrələnə bilər.

**Aprobasiyası** və **tətbiqi.** Dissertasiyanın fəsilləri ayrı-ayrılıqda şöbənin iclaslarında müzakirə olunmuşdur. Tədqiqatın

əsas müddəa və nəticələri iddiaçının Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin müəllifin monoqrafiyalarında, xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan (Web of Science, Scopus, Copernicus, Ulakbim və s.) dövrü elmi nəşrlərdə, ölkədaxili və xaricində keçirilən beynəlxalq konfransın materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın yerinə yetirildiyi təşkilat.** Dissertasiyanın mövzusu Azərbaycan MEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında və Ədəbiyyatşünaslıq üzrə Problem Şurasında təsdiq edilmiş, həmin İnstitutun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi;** Dissertasiya işi giriş (16.836 şərti işarə), dörd fəsil (birinci fəsil – 124.727 şərti işarə, ikinci fəsil – 110.269 şərti işarə, üçüncü fəsil – 87.166 şərti işarə, dördüncü fəsil – 63.098 şərti işarə) nəticə (8.868 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 410.664 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın I fəsli "**Mətbuatın inkişaf mərhələləri və ədəbi-mədəni həyatın tarixi təkamülü prosesi**" adlanır və iki paraqrafa ayrılır.

Həmin fəslin "**1978-1979-cu illər İran inqilabına qədərki Cənubi Azərbaycan milli mətbuatına ümumi bir baxış**" adlı ilk

paraqrafında Cənubda mətbuatın elmi-nəzəri statusu və xronoloji sərhədləri müəyyənləşdirilir.

Mətbuatın formalaşması və inkişaf tarixi hər bir xalqın mədəni tərəqqisinin göstəricisi kimi müxtəlif tərəflərdən xalqın dövlət və cəmiyyət quruculuğu, siyasi institutlarının bərqərar olması ilə paralel mənəvi daşıyıcılarının da əks olunduğu tarixi mənbədir. Mətbuat istər-istəməz ictimai şüurun bütün istiqamətlərini özündə cəmləşdirir, ən başlıcası isə xalqın milli özünüdərk enerjisini ehtiva edir. Tarix boyu belə olmuşdur. Azərbaycan xalqının Cənubda tarixi taleyi baxımından istər farsdilli, istərsə də anadilli mətbuatın təşəkkülü prosesini izləmək zərurəti yaranır. Çünki hər bir xalqın tarixində olduğu kimi, Cənubda da ictimai-siyasi və mənəvi institutların güzgüsü kimi mətbuat, ədəbi-bədii gedişatın, onun mətləb, mövzu və bədii təcəssümünün özəlliklərini üzə çıxarmaqda əvəzsiz mənbədir.

Azərbaycanın ikiyə bölünməsindən sonra 1978-1979-cu illər İran inqilabına qədərki tarixi gedişi mərhələ-mərhələ nəzərdən keçirən zaman mətbuatın milli-ictimai fikrin əsas daşıyıcısı olduğunu, bu prosesdə Şimalla Cənubun ədəbi prosesin qarşılıqlı təsirinin həlledici rol oynadığını görməmək mümkün deyil. Bu, Şimaldan maarifçilik hərəkatının geniş intişar tapdığı tarixi dönəmlərdə olduğu kimi, XX əsrin əvvəllərində Rusiyadakı məlum tarixi hadisələrlə əlaqədar Şimalda mədəni həyatın bütün sahələrini əhatə edən milli tərəqqi ilə bağlı idi.

Bütün sədlərə, qadağalara baxmayaraq, milli ideyalar Cənubda dərhal əks-səda doğururdu. Çünki bu, iki şovinist rejimin məngənəsində illər uzunu əzab çəkmiş vahid bir xalqın milli-azadlıq ideyalarının təzahürü idi. Şübhəsiz ki, Cənubi Azərbaycanda mədəni həyatın milli zəmində inkişafı üçün XX əsrin əvvəllərində daha münbit siyasi şərait mövcud idi.

Şimalda mövcud olan ədəbi hərəkatın Cənuba təsirini M.Ə.Sabirin poeziyası timsalında A.Səhhət qədər sərrast ifadə edən olmamışdır. *“Mən də iddia edirəm ki, Sabir əfəndinin asarı bu beş ilin müddətində İran Məşrutəsinə bir ordudan ziyadə xidmət etmişdir”*[8] .

---

8 Səhhət, A. Əsərləri: [2 cilddə] / A.Səhhət. – Bakı: Gənclik, – c. 2. – 1970. – s.14

Mətbuat tarixinin bütün tarixi gedişatı bir daha onu göstərir ki, Azərbaycan xalqının ikiyə bölündüyü ötən iki əsrə yaxın bir mərhələdə mətbuat və ədəbiyyat eyni mətləblər uğrunda mübarizə aparmışlar. Bu prosesi Şimalla Cənubu təcriddə yox, vəhdətdə, eyni milli zəmində öyrənmək daha səmərəli yoldur. İkinci Cahan müharibəsi zamanı Cənubdakı hadisələr, xüsusən milli dirçəlişin bütün istiqamətlərini əhatə edən proseslər bir daha təsdiq edir ki, yüz ilin ədəbi-mədəni məhdudiyyətlərini qısa zaman kəsiyində aradan götürmək mümkündür. Bu o taylı, bu taylı xalqın tarixi yaddaşı ilə bağlıdır. Dissertantın bu prosesi xüsusi kitab və məqalələri ilə geniş şərh etdiyi üçün onu qeyd etməklə kifayətlənirik ki, 1978-1979-cu illər İran inqilabına aparan yolda Cənubda az araşdırılmış milli hərəkatın da rolu olmuşdur[9].

Cənubda mövcud olmuş mətbu orqanların, digər nəşrlərin tarixinə xronoloji şəkildə ekskurs bir daha təsdiq edir ki, xalqın milli özünüdərk prosesində tarixi irəliləyiş və geriçəkilmələri məhz mətbu və nəsr janrlarında əyaniləşmişdir. Hər irəliləyişin mətbuatda, ədəbi-bədii nümunələrdə əksini tapmış daxili enerjisi milli yaddaşın dərinliyinə çökmüş, əlverişli tarixi məqamlarda yenidən kükrəmişdir. Bunu Şimaldakı tarixi ədəbi prosesin gedişatında da izləmək olar. Azərbaycan Demokratik Cümhuriyyətinin 1918-1920-ci illər mətbuatında əksini tapmış milli intibahın əks olunduğu siyasi və mədəni institutların "davamı" sovet dönəmində bədii fikrin alt qatına köçdü, lakin heç zaman milli yaddaşdan silinmədi.

Cənubdakı çağdaş günlərimizdə baş verənlərin kökündə yuxarıda xatırlatdığımız tarixi yaddaşın müasir siyasi gerçəkliyin hüdudlarında, yeni biçimdə dövriyyəyə gəlməsi dayanır.

I fəslin **"Milli şüurun formalaşmasında mətbuatın və ədəbiyyatın rolu"** adlı ikinci paraqrafında 1978-1979-cu illər İran inqilabının Cənubdakı mədəni həyatda bir canlanma, dirçəliş mərhələsi yaratdığı xüsusi qeyd edilir.

1978-1979-cu illər İran inqilabından sonra çoxmillətli bir ölkə olan İranda yaşayan xalqlar bəzi hüquqlar əldə etdilər. İnqilab

---

[9] Məmmədli, P. Hər iki tayın gerçək aynası // Azərbaycan dərgisi, – 2014

prosesində Cənubi Azərbaycanda milli istəklərə dayanan güclü bir siyasi hərəkat başladı. Bir çox partiya, təşkilat, dərnəklər quruldu və bunların orqanları olan qəzet və jurnallar açıq fəaliyyətə başladı.

İctimai-siyasi sahədə milli tələblər reallaşdırılmasa da, 1978-1979-cu illər İran inqilabı Cənubi Azərbaycanda mədəni sahədə dirçəlişə səbəb oldu.

Qısa zaman ərzində çoxsaylı ədəbi-mədəni cəmiyyətlərin, onların özünəməxsus mətbuat orqanlarının fəaliyyətə başlamaları inqilabın Cənubi Azərbaycan mədəniyyəti, ədəbiyyatı tarixində yeni səhifələr açdığına, xalqa nisbi də olsa, azadlıq verdiyinə sübutdur. Yəni inqilab azərbaycanlıların milli şüurunun məzmununu subyektiv gerçəklikdən obyektiv reallığa çevrilməsinə şərait yaratmışdır. Həmin mərhələyə xas digər mühüm cəhət Azərbaycan xalqı, dili, mədəniyyəti, gələcəyi barədə fikirlərin daha yüksək nəzəri səviyyədə ilk dəfə Azərbaycan dilində ifadə edilməsidir.

Azərbaycan mətbuatının səhifələrində Azərbaycan xalqının tarixi, mədəniyyəti, dil və ədəbiyyatının işıqlandırılması və kütləviləşməsinə maraq göstərilirdi. “Yoldaş”, “Varlıq”, “Koroğlu”, “Dədə Qorqud’ kimi jurnallar, “Odlar yurdu”, “Çənlibel” kimi qəzetlər ilk saylarında bu sahədə hərtərəfli işə başlamış və onu özlərinin əsas vəzifələrindən biri hesab edirdi. Bu qəzet və jurnallar oxucuların xahişi ilə öz səhifələrində “Azərbaycan tarixindən”, “Azərbaycan ədəbiyyatı tarixi”, “Azərbaycan dilinin inkişaf mərhələsi” adları altında bir sıra materiallar, hər iki tayın şair və yazıçılarının əsərlərindən parçalar dərc etmişdi.

Bütün inqilab epoxalarında olduğu kimi, 1978-1979-cu illər İran inqilabından sonra Cənubi Azərbaycan ədəbi mühitində xüsusi bir canlanma başlandı. İran İslam Respublikasının 1979-cu ilin dekabrında qəbul edilmiş qanununun 15-ci maddəsində yerli və qövmi (etnik) dillərin kütləvi informasiya vasitələrində, mətbuatda işlənməsinə, məktəbdə isə milli ədəbiyyatın tədrisinə icazə verildi. Əsas qanunun 19-cu maddəsində isə ölkədə müxtəlif millətlərin, xalqların yaşaması dolayısı ilə olsa da, etiraf edildi.

Qanunda nəzərdə tutulanlar hamısı dərhal reallaşmasa da, Azərbaycan dili tədris sahəsinə heç cür yol tapa bilməsə də, mədəni həyatda bir sıra nailiyyətlər nəzərə çarpırdı.

*Kitab çapı sahəsində xüsusi canlanma, yüksəliş müşahidə edilirdi. İnqilaba qədər olan 30 il ərzində bəlkə heç 30 kitab ana dilində işıq üzü görməmişdirsə, təkcə 1979-1985-ci illər arasında İranda Azərbaycan dilində təxminən 200 adda kitab nəşr olunmuşdu*[10].

İnqilab başlandığı zamandan kitab nəşri sahəsində özünü göstərən canlanma, hər ilin anadilli nəşrlərini nəzərdən keçirməklə bir daha təsdiqlənir. Təəssüf ki, Cənubi Azərbaycanda anadilli kitab nəşrinin və mətbuatının dirçəliş dövrü çox az çəkdi.

Ümumiyyətlə, 1978-1979-cu illər İran inqilabından sonra nəşr olunan əksər qəzet və jurnalların ömrü qısa oldu. 1978-1979-cu illər İran inqilabından sonra İranda və Cənubi Azərbaycanda 20 il ərzində nəşr olunan anadilli mətbuat nümunələrinin sayı 60-dan artıq olmuşdur.

Qarşıda uzun illər Pəhləvi hakimiyyətinin azərbaycanlıları farslaşdırmaq siyasəti nəticəsində xalqın öz milli-mənəvi inkişafından məhrum edilmiş bu böyük hissəsinin mədəni həyatının bütün sahələri üzrə inkişaf yollarının müəyyənləşdirilməsi və hazırlanması kimi mühüm məsələlər dururdu.

Fransada Sorbon universitetinin məzunu olmuş Sonel Bosnalı "İranda Türk olgusu ve "Varlık" dergisi üzerine bilimsel araştırmalar " adlı əsərində "Varlıq" jurnalının fəaliyyətini çox yüksək dəyərləndirib yazırdı: *"Varlıq jurnalı, sadəcə İrandakı Türk dilinin əhəmiyyətini təsbit etmir, eyni zamanda ortaq bir ədəbi dilin meydana gəlməsində ortaya çıxan çətinlikləri göz önündə tutmağa köməkçi olur"*[11].

1979-cu il İran İslam inqilabından sonra dövlətin rəsmi siyasəti pəhləvilərdən miras qalmış fars milliyyətçiliyindən İslam ümmətçiliyinə keçid aldı.

Görkəmli İran yazıçısı Cəlal Ali Əhmədin hələ ötən əsrin 50-60-cı illərində söylədiyi bir həqiqətlə razılaşmamaq mümkün deyil. O yazırdı ki, *Cənubi Azərbaycanda baş verən bütün böhranlı*

---

[10] Mustafayev, V. Cənubi Azərbaycanda milli şüur / V.Mustafayev. – Bakı: Zeynalov və oğulları kompaniyası, – 1998. – s.138

[11] Bosnalı, S. İranda Türk olgusu ve "Varlık" dergisi üzerine bilimsel araştırmalar / – Ankara: – 2000. – s.37-38

*vəziyyətlər dil məsələsindən doğmuşdur.* O qeyd edirdi ki, *mədəniyyətin, təhsilin, mətbuatın və kitab nəşrinin hələ yayılmadığı dövrdə İranda dil müxtəlifliyi elə bir problem doğurmurdu. 1920-ci illərin əvvəllərində Tehran hökuməti bütün ölkədə əhalinin birdilli olmasına çalışdı... Bütün səyini nəinki türk dilini məhdudlaşdırmağa, hətta onu məhv etməyə yönəltdi* [12].

Uzaqgörənliklə söylənilən fikir bu gün də qüvvədədir. Çağdaş dövrdə mərkəzi hökumətlə Cənubi Azərbaycan arasında baş verən bütün ixtilafların kökündə, əsasən, dil məsələsi durur. Çünki dil hər bir xalqın yaşarlılığının, mövcudluğunun davamıdır. Cənub mətbuatı üçün xarakterik xüsusiyyətlərdən biri də odur ki, öz səhifələrində fars dilində məqalə və materiallar dərc etməklə Azərbaycan xalqının milli varlığını, mədəniyyətini, zəngin tarix və ədəbiyyatını həm farsdilli, həm də İranın digər qeyri-azərbaycanlı xalqları arasında təbliğ edir.

Azərbaycan mühacir mətbuatının ilk nümunələri Türkiyə, Misir və Avropanın bir sıra ölkələrində görünürdüsə, sonralar bu coğrafi siyahıya ABŞ, Kanada və digər ölkələr də daxil oldu.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticə və müddəalar aşağıdakı əsərlərdə öz əksini tapmışdır.[13] [14] [15] [16] [17]

II fəsil "**Müasir Cənubi Azərbaycan ədəbiyyatında milli-mənəvi dəyərlərə qayıdış"** adlanır. Bu fəsildə folklor örnəklərinin və klassik Azərbaycan ədəbiyyatının toplanması, nəşri və

---

[12] Bosnalı, S. İranda Türk olgusu ve "Varlık" dergisi üzerine bilimsel araştırmalar / – Ankara: – 2000. – s. 41.

[13] Məmmədli P. Ana dilin müdafiəçisi // Filologiya məsələləri, – 2007. № 6, – s. 59-63

[14] Məmmədli P. Çağdaş dövrdə Güney Azərbaycan mətbuatı // – Bakı Universiteti Xəbərləri, –2008. № 2, – s. 221-226

[15] Məmmədli P.Bölünmüş xalqın faciəsini ilk dəfə bəyan edən qəzet // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2008. № 1, – s.31-39

[16] Məmmədli P. Cənubi Azərbaycan mətbuat tarixi: Monoqrafiya / –Bakı: Elm, – 2009

[17] Məmmədli P. Güney Azərbaycanın mətbuat tarixinə bir baxış // Azərbaycan mətbuat tarixi antologiyası: [2 cilddə]. – Bakı: Elm və təhsil, – c. 2. – 2011, – s.360-372

araşdırılması məsələlərindən bəhs edilir. Fəslin **“Folklor örnəklərinin toplanması, nəşri və araşdırılması”** adlanan ilk paraqrafında folklorun milli tərəqqidə müstəsna rolu, ana dilini və xalq yaddaşını qoruyub saxlaması, yazılı ədəbiyyata təsiri məsələləri ətraflı şərh olunur.

Cənubi Azərbaycanda da folklor hər zaman milli-mənəvi yaddaşın daşıyıcısı kimi çıxış etmiş, xalqın mənəvi varlığını təsdiq edən ana dilinin yaşamasını ehtiva etmişdir. Əsrlərdir ki, Cənubda milli bədii düşüncənin əsas göstəricisi folklor olmuş, xalq yaradıcılığının özünü qoruma instinkti bütün məhdudiyyətlərə qalib gəlmişdir. Cənub folkloru öz ilkinliyini uzun əsrlər yaşatmaqla yanaşı, yazılı ədəbiyyatın da milli ədəbi formalarının inkişafında, yad ədəbi-bədii kanonlardan xilas olmasında yardımçı olmuşdur.

Akademik Mirzə İbrahimov folklorun xalqın dili,tarixi baxımından mənbə rolunda çıxış etdiyini şifahi xalq ədəbiyyatına dair tədqiqatlarında – “Aşıq poeziyasında realizm” adlı monoqrafiyasında, həmçinin Cənubda və Şimalda formalaşan dastançılıq sənətinin özəlliklərindən bəhs edərkən öz müasirliyini saxlayan elmi nəticələrə gəlmişdir: *“Zəngin ədəbiyyatımız öz-özlüyündə bir tarixi mənbədir, istər cəhaləti və avamlığı üzündən, istərsə də tarixi həqiqətlərə göz yumub, Azərbaycan xalqının bu torpaqlarda qədimlərdən yurd saldığını dananların, yəni xalqımızın tarixini, dilini, mədəniyyətini, ədəbiyyatını inkar etməyə çalışanların gərəksizliyini, bədxahlılığını göstərən rədd olunmaz dəlillər mənbəyidir”*[18].

Cənubi Azərbaycan folklorunun toplanması və araşdırılmasında Mirzə Hüseyn Əhri, Məhəmməd Mustafa, Mir Bağır Xalxali, Salamullah Cavid, Ə.V.Dəhxuvarğanlı, Əhmədе Makuyi, Səməd Behrəngi, Behruz Dehqani, Əli Təbrizli, Məhəmmədəli Fərzanə, Məcid Savalan və Əli Kamali və Cavad Heyətin böyük xidmətləri olmuşdur.

Divan ədəbiyyatımız fars, ərəb təbirləri ilə yüklənərkən, aşıqlarımız dil və düşüncəsi ilə hər zaman xalqın yanında olmuş və xalq ədəbiyyatını nəsildən nəslə çatdırmışlar. Xalqın mənəvi sərvəti

---

[18] İbrahimov, M. Mənalar xəzinəsi // M.İbrahimov. “Arazam Kürə bəndəm” kitabına müqəddimə. – Bakı: Yazıçı, – 1986. – s.5

olan bu əvəzsiz xəzinə sonralar kitablar halında ziyalılar tərəfindən çap olunmuşdur.

Bir çox xalqların ədəbi təcrübəsi göstərir ki, milli dirçəliş zamanı folklora qayıdış qanunauyğunluq qazanır. Bu, Cənubda da müşahidə olunur. Cənubda folklor nümunələrinin toplanıb çeşidli dərgi, qəzet və nəşrlərdə dərc olunması milli varlığı yaşatmaq istəyinin ifadəsi kimi meydana çıxır. İnqilabın qələbəsindən dərhal sonra nəşr olunan anadilli mətbuat və kitablar arasında folklor nümunələrinin də xüsusi yer tutması bu meylin əyani təsdiqi və göstəricisi idi.

Cənubda mətbu orqanları və ara-sıra çap olunan kitablar folklorun nəşri, tədqiqi və təbliğinə xüsusi yer verməklə, həm də yazılı ədəbiyyatın lüğət tərkibinin milliləşməsinə müsbət təsir göstərir, Cənubda işlədilən ədəbi dilin ərəb-fars tərkiblərindən təmizlənməsinə kömək edir. Şifahi xalq yaradıcılığı nümunələrinin nəşrində və folklorun ayrı-ayrı problemlərinə həsr edilmiş yazılarda qeyd etdiyimiz istiqamət əsas yer tutur. Folklorun bu sahədə gördüyü böyük işin mahiyyətinə yüksək qiymət verərək Yaşar Qarayev yazırdı: "*Folklor özü əsatirdə və bayatıda, nağılda və dastanda əbədiləşən canlı yaddaşa çevrilib və qoymayıb ki, nə o, nə də bu sahildə bir kəs soyunu, əslini və zatını unutsun*"[19].

Cavad Heyət, Hüseyn Feyzullahi Vahid (Ulduz), Əlirza Sərrafi, Hüseyn Məmmədxani Güneyli, Zöhrə Vəfayi, Behruz İmani, Mir Hidayət Hesari, Əli Yekani, Behzad Behzadi, , Əlirza Zihəq, Mənzuri Xamneyi, Əli Zəfərxah, Bəhrəm Əsədi, Tohit Məlikzadə, Kazım Abbasi, Yaqub Quds, Əli Əsgər Xürrəm, Məhəmməd Əli Niqabi, Behruz Həqqi, Məmmədrza İsmayılzadə, Bəy Hadi, Aqşin Ağkəmərli, Məhəmməd Rəzzaqi, Nəbi Kobotarian, Süsən Nəvahəndi kimi müəlliflərin folklorla bağlı çalışmaları sələflərinin başladığı missiyanı uğurla yerinə yetirə bilmişdir. Nəşrlərdə folklor problemi şifahi xalq ədəbiyyatı örnəklərinin üzə çıxarılıb çap olunması və elmi tədqiqat kimi iki istiqamətdə nəzərdən keçirilə bilər. Bu istiqamətlər inkişaf edərək bir-birini tamamlayır.

---

[19] Qarayev,Y. Seçilmiş əsərləri / Y.Qarayev. Bakı: Elm, – 1971. – s.3-4

Məhəmədəli Fərzanənin məsləkdaşları Səməd Behrəngi və Behruz Dehqani ilə İranda ana dilində yazmaq qadağan olunduğu zamanlarda xalqdan topladığı nağılları nəşr etdirməklə milli varlığı, milli ruhu yaşatmağa çalışırdılar.

Vətənpərvər folklorçu Əli Kamali İranın müxtəlif bölgərində pərakəndə halda yaşayan türklərin həm çağdaş, həm də keçmişdə yazıb yaratmış şairlərinin əsərlərini, folklorunu, yer adlarını toplayıb öyrənməklə məşğul olmuşdur.

Azərbaycan folklorunun yazılı halda bizə gəlib çatmış ən böyük abidəsi "Kitabi-Dədə Qorqud" eposudur. Ədəbi-bədii düşüncəmizin əski qaynaqlarından olan “Dədə Qorqud” boyları Cənubda həmişə diqqət mərkəzində olub. Cavad Heyət, Məhəmmədəli Fərzanə, Əlirza Sərrafi, Məhəmməd Hüseyn Güneyli, Nəbi Kobotarian İranda “Dədə Qorqud” dastanlarının nəşri, ədəbiyyata təsirini araşdırma istiqamətlərində müəyyən işlər görmüşlər.

Bu tədqiqatların bir qismi informasiya səciyyəsi daşısa da, ümumən Cənub folklorunun janrları, dil özəllikləri, yarandığı bölgənin tarixi-coğrafi toponimlərinin əksi mənasında əvəzsiz mənbədir.

Azərbaycan türklərinin folkloru və el ədəbiyyatı çox rəngarəng və zəngindir. Epik folklor janrlarından nağıl və dastanlar, xalq müdrikliyinin ifadəsi olan atalar sözləri və zərbi-məsəllər, bayatılar və uşaq təxəyyülünü inkişaf etdirən tapmacalar və s. tarix boyu qonşu xalqların folklor və klassik ədəbiyyatına güclü təsir göstərmişdir.

Son illərin Cənub folklorunun müxtəlif janrlarının, xüsusən aşıq ədəbiyyatının tədqiqi ilə bağlı araşdırmalar sübut edir ki, bu gün Şimaldakı aşıq məktəbləri, xüsusən Qərb bölgəsinin təmsilçiləri Cənub aşıq məktəbinin tarixi ənənələri fonunda formalaşmışdır. Xüsusən ifaçılıq sahəsində Cənub aşıqları daha rəngarəng repertuara malikdirlər.

Təbriz, Urmiya, Qarapapaq, Zəncan, Savə, Qaşqay, Xorasan kimi yeddi aşıq mühitini qapsayan Cənubi Azərbaycan yüzlərlə xalq ədəbiyyatı, ənənə çərçivəsində istifadə edilən milli çalğıları və çox zəngin aşıq ədəbiyyatı örnəkləri ilə Türk dünyası aşıqlıq ənənəsinin

ən əhəmiyyətli bölgələrindən biridir.

Sinkretik sənət növü kimi aşıq sənəti geniş xalq kütləsinin içərisində xalqın mədəni sərvətlərinin musiqi, söz, mərasim, xalq tamaşaları elementlərinin daşıyıcısı olmuşdur.

İkinci fəslin **"Klassik Azərbaycan ədəbiyyatının nəşri və tədqiqi məsələləri"** adlanan ikinci paraqrafında cənublu araşdırmaçıların klassik Azərbaycan ədəbiyyatı əlyazmalarının aşkara çıxarılması, araşdırılması və nəşrə hazırlanması istiqamətində gördüyü işlərə nəzər yetirilir**.** Göstərilir ki, klassik ədəbiyyat – "Divan ədəbiyyatı" dan bəhs etdikdə klassik şairlərin, əsasən də, "Divan" bağlayan müəlliflərin, eləcə də qələmlərini daha çox əruz vəznində sınayan yazarların məsnəviləri və çeşidli lirik şeir növləri nəzərdə tutulur. Bu qəbildən olan mətnlər üzərində çalışan mütəxəssislər yaxşı bilirlər ki, klassik sənətkarlar müsəlman Şərqində geniş yayılmış üç dilə (ərəb, fars və türk) dərindən yiyələnməklə yanaşı, islamın müqəddəs kitabı – Quranı, hədisləri, ilahiyyatı da yetərincə bilmiş və "Divan ədəbiyyatı"nın öz kanonları yaranmışdır.

Xüsusən Azərbaycan ədəbiyyatını ümumtürk ədəbiyyatı konstekstində öyrənmək, bu əlaqələrin məzmununu üzə çıxarmaq baxımından mətbu orqanlarda klassik irslə bağlı dərc edilmiş araşdırmalar diqqətəlayiqdir. Bu araşdırmalar sırasında məzmun-mündərəcə miqyası və ümumiləşdirmə dəyəri ilə "Varlıq", "Azəri", "Yaşmaq", "Dilmanc" dərgilərində çap olunmuş araşdırmalar və Cavad Heyətin Azərbaycan ədəbiyyatına dair tədqiqatları xüsusi yer tutur.

Cənublu araşdırmaçılar klassik Azərbaycan ədəbiyyatı əlyazmalarının aşkara çıxarılması, araşdırılması və nəşrə hazırlanması istiqamətində ardıcıl iş aparırlar.Xüsusən ərəb, fars dillərinə yaxşı bələd olan cənubluların mətnşünaslıq fəaliyyətləri çap olunan əsərlərə verdikləri izah və şərhlərin dolğunluğu ilə seçilir.

Cənubda aparılan tədqiqatlar, ilk növbədə, ümumzərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində fars və ərəbdilli mənbələrin elmi dövriyyəyə gətirilməsi ilə əhəmiyyətlidir. Mətn, fakt və mənbəyə əsaslanmadan istər Cənubda, istərsə də Şimalda gedən

prosesləri obyektiv dəyərləndirmək mümkün deyil. Qədim və Orta əsrlər ədəbiyyatı ilə yanaşı, XIX-XX əsrlərdəki ədəbi gedişatın, klassiklərin, tarixi ədəbi hərəkatın inkişafında rolunu müəyyənləşdirməkdə real yardımçıdır.

Klassik ədəbi irsimizin tarixi, dili, sənətkarlıq problemləri ilə bağlı məsələlərin, silsilə tədqiqatların şərhi bir daha göstərir ki, Cənubda klassik Azərbaycan türkcəsində yazıb yaratmış sənətkarların yaradıcılığını üzə çıxartmaqda bir çox cənublu araşdırmaçıların xidmətləri əvəzedilməzdir. Çünki bu gün Şimali Azərbaycanda fəaliyyət göstərən tədqiqatçıların əksəriyyəti ərəb və fars dilində yazılmış mənbələri əldə etməkdə və onları müasir əlifbada nəşr etməkdə ciddi çətinliklərlə qarşılaşırlar. C.Heyət, H.Məmmədzadə, Q.Beqdeli, M.Zehtabi və bu kimi ziyalılar mətbuat səhifələrində klassik ədəbi irs barədə dərc etdirdiyi materiallarla o taylı-bu taylı Azərbaycan tədqiqatçılarının axtarışlarını xalqa çatdırmış, ədəbiyyat tariximizin dolğunlaşmasına və bütövləşdirilməsinə xidmət etmişlər.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticə və müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır.[20] [21] [22] [23] [24]

**“Poeziyanın ideya - bədii axtarışları”** adlanan III fəslin **“Klassik ədəbi ənənələr və milli ictimai hərəkatın poetik inikası”nı qabardan** ilk paraqrafında klassik xalq şeiri ənənəsinə

---

[20] Məmmədli, P. “Varlıq” jurnalının” səhifələrində folklor materialları // AMEA Folklor Institutu, “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” V Uluslarası folklor konfransı, Bakı: – 17-19 oktyabr, – 2007. s. 461-464

[21] Məmmədli, P. Güney Azərbaycanın tanınmış folklor toplayıcıları // Folklorun toplanması və sistemləşdirilməsi problemləri mövzusunda Respublika Elmi Konfransının materialları, – Şamaxı: – 5 iyun, – 2013, – s.159-168

[22] Məmmədli, P. Xalqının yaddaş daşıyıcısı - Məhəmmədəli Fərzanə. // Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər / I hissə. – Bakı: Sabah, – h. 1. – 2015. – s. 93-100

[23] Məmmədli, P. Klassik ədəbiyyatımızın kamil bilicisi – Qulamhüseyn Beqdeli . // Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər / I hissə. – Bakı: Sabah, – h. 1. – 2015. – s. 67-75

[24] Məmmədli, P. “Köroğlu” destanının Tebriz seçeneğinin karşılıştırmalı analizi // “Köroğlu ve türk dünyası destan kahramanlari”. VI. Uluslararası Köroğlu sempozyumu Bildiriler Kitabı, – Bolu, Türkiye: – 10-12 Ekim, – 2016, – s.599-611

sadiq qalan şair və yazıçıların yeni əsərlər meydana gətirdiyindən və XX əsrin ictimai, siyasi gedişlərinin poetik fikrin bütün qollarına təsirindən bəhs olunur.

Ədəbiyyat tarixinin inkişaf problemlərini tədqiq edən görkəmli mütəxəssislərə görə ictimai-siyasi hadisələrdən kənar ədəbi gedişat mümkün deyil.

XX əsrin ictimai, siyasi gedişləri poetik fikrin bütün qollarına təsir etmişdir. Bu qarşılıqlı təsirin sonunda klassik şairlər ənənəvi mövzulardan uzaqlaşaraq sosial və ictimai mövzulara üz tutmuşlar. Xalq şeiri və klassik formada yaranan poeziya ilə yanaşı, təriqət ədəbiyyatı və satirik şeir də davam və inkişaf etmişdir.

Bu dövr şairləri arasında farsca ilə ortaya qoyulan "yeni şeir" anlayışında Azərbaycan şairlərinin əhəmiyyətli qatqısı olmuşdur. Fars şeirində köhnə qəlibləri qıran və bu sahədə yeni bir cığır açan şairlərin başında Mirzə Tağı Rüfət, Cəfər Xamneyi və Şəms xanım Kəsmai gəlir.

Yenicə formalaşmağa başlayan milli müəyyənlik düşüncəsi artıq 1945-1946-cı illərdə solçu-populist müstəviyə, 1990-cı illərdə isə yenidən millətçiliyə, kimliyə keçdi. İraq-İran müharibəsi, demək olar ki, bütün problemləri kölgədə saxladı.

Cənubi Azərbaycan şairlərinin yaradıcılığında ən çox yayılmış poetik forma qəzəl olub. Şair və yazarların bir çoxu öz ana dilləri ilə bərabər, fars, eləcə də ərəb dillərində də yazıb yaradıblar.

Cənub poeziyasında qabarma və çəkilmələr ictimai gedişatla bağlı idi, Şimalda və Türkiyədə nəzərə çarpan mətbuatın siyasi rejimə tabe olması, dünyada gedən ədəbi yeniliklər ədəbi prosesin 2000-ci illərə qədər dilin işləklikdən uzaq olması, şairlərin şeirlərinin işıq üzü görməməsi ədəbiyyatda, xüsusilə müasir ədəbiyyatda böyük bir boşluğun yaranmasına gətirib çıxarmışdı. Tənqidçi Eldar Muğanlı bu illərə təkcə Səhər xanımın “Yaşıl mahnı” kitabı ilə ilə bir körpü saldığını yazır. Daha sonra isə 2000-ci illərdən bəri modern şeirə yeni ətir və rəng qatan Nasir Merqatı, Hadı Qaraçay, Kyan Xiyav, Həmid Şahangi, Lalə Cavanşır, Saleh Ətayı və Rza Qəfari kimi təmsilçilərin meydana gəlməsini

vurğulayır.[25]

Şairlər şəxsi problemlərinin dar çərçivəsində qalmayıb cəmiyyətin ehtiyaclarına diqqət yetirir, həyatdan doğan yaşantıları öz şeirlərində əks etdirirlər.

Klassik Şərq poeziyası ənənələrinə sadiq qalan bu şairlər qəzəl janrının, eləcə də digər klassik şeir formalarına türk leksik-semantik vahidlərini gətirdilər. Ən çox da folklor nümunələrinə əsaslanmaqla əski üsluba formal yanaşmadan onu müasir şəraitdə bacarıqla istifadə edib, kanonik forma ilə aktual mövzunu ustalıqla birləşdirirlər.

70-80-ci illərdən etibarən qəzəl janrının Cənubda müəyyən təkamül keçirdiyinin şahidi oluruq.

Cənub şeirində əhəmiyyətli qollardan biri də satiradır. Basqı altında yaşayan cənublu şairlər aşkar söyləyə bilmədiklərini ezop dili ilə ifadə etməyə çalışıblar.

Ana dilində yazıb yaradan ziyalıların əsərləri işıq üzü görmür; sandıqların küncündə rəngi saralan əlyazmalara çevrilirdi. Yaranan anadilli əsərlərin çoxu sandıqlarda gizli qalmış və işıq üzü görmədən Cənub tənqidçiləri tərəfindən "Sandıq ədəbiyyatı" adlanırdı. O zamandan başlayaraq ziyalıların qardaş Türkiyəyə səfərləri daxildən doğan milli-mənəvi ehtiyaclarını ödəməyə xidmət edirdi. Türkiyə ədəbi mühiti, Yəhya Kamal və Tofik Fikrət, Nazim Hikmət kimi şairlərin Tağı Rüfət, Mirzə Əli Möcüz, Həbib Sahir, Həmid Nitqi kimi şairlərə təsiri az deyildi.

Daha çox "Molla Nəsrəddin"çilərin və M.Ə.Sabirin əlindən su içən Mirzə Əli Möcüz demokratik və inqilabçı bir şair kimi özünü tanıtdırır. Satiralarında cəhalətə, xurafata qarşı mücadilə aparır, maarifin modernləşməsini, qadın haqlarını müdafiə edirdi.

"Heydər babaya salam" Cənubda onlarca universitetin görə bilmədiyi işi gördü. türk dilində yazmağa güclü təkan verdi. Beləliklə, "Heydər babaya salam" əsəri Azərbaycan türkcəsinin assimilyasiyaya müqavimətini güclü surətdə nümayiş etdirdi və Şəhriyar türk dilinin millilik və xəlqilik tutumunu Heydər baba zirvəsinə qaldırdı. İranda türkdilli ədəbiyyatın daha da inkişafına

[25] Muğanlı, E. Gəncəli Səbahının həyat və yaradıcılığına dair: [Elektron resurs]. URL: www. ishiq.net

təkan verdi. Şəhriyarın ana dilində yazdığı əsərlər, həm də milli dildə mətbuatın yaranmasına, mətbuatın səhifələrində anadilli poeziya nümunələrinin geniş yayılmasına səbəb oldu.

İnqilabdan sonra da Məhəmmədhüseyn Şəhriyar, Həbib Sahir, Səhənd, Savalan, Hüseyn Düzgün, Qaflantı, Məhzun, Həmid Nitqi kimi təcrübəli sənətkarlar ədəbiyyata yeni gələn ədəbi nəslin yaradıcılıq istiqamətini müəyyən etməkdə həlledici rol oynadılar. Bir-birinin ardınca nəşr olunan qəzet və jurnallarda əsas yeri poeziya tuturdu. Çünki poetik formalar cari, aktual mövzulara dərhal ədəbi müdaxilə etməkdə başqa janrlara nisbətən daha böyük imkanlara malik idi.

1978-1979-cu illərin məlum ictimai-siyasi prosesləri zamanı Azərbaycan dilinin inkişafında xüsusi mərhələ başladı. Ana dili problemi mətbuat səhifələrində də baş mövzuya çevrildi. Dərgi və qəzetlərdə onlarla şairin dillə bağlı şeiri çap olundu.

Ana dili mövzusunun işlənməsi bir məqsədə xidmət edir ki, bu da Azərbaycan dilinin yaşaması, inkişafı, xalqın varlığını təsdiq edən amil olmasıdır. Dilin poetik əksində isə hər şairin mənsub olduğu poetik üslubun məziyyətləri özünü büruzə verir. İstər bayatı, qəzəl, istərsə də sərbəst şeir formasında bu mövzunun işlənməsində eyni poetik ruh, ictimai-siyasi mövqe hakimdir.

Səhənd şeirlərindən birində üzünü xalqa tutub Azərbaycan türkcəsinin ədəbi dil şəklində işlənməsini tövsiyə edirdi:

Ana dildə yazaq öz xalqımıza
Milyonluq kütlələr göz dikib bizə....[26]

– deyərək poeziyada ana dili probleminə bu qədər geniş yer verilməsinin səbəblərini açıqlayırdı.

Birbaşa deyim tərzi, pitorik poetik təhkiyə forması bəzən üstünlük qazanır, “Heydər baba” lirizmini çağırış, pafos əvəz edir. Şübhəsiz, bu tipli şeirlərin yerinə yetirdiyi bədii missiyanın milli məzmunu, vətənpərvərlik tutumu təqdir ediləndir.

İran İslam inqilabından sonrakı Cənub ədəbiyyatının öz

---

[26] Səhənd, B.Q. Seçilmiş əsərləri / B.Q.Səhənd. – Bakı: Şərq-Qərb, – 2006. – s.78

üzərində təsirini daim hiss etdiyi ikinci sima Bulud Qaraçorlu Səhənd idi. Səhəndin Pəhləvi rejiminin qəti qadağalar dövründə yazdığı anadilli əsərləri, xüsusən “Dədə Qorqud” dastanları əsasında yazdığı “Sazımın sözü” poeması ilə geniş şöhrət tapmışdı. Dörd cilddən ibarət olan bu əsərin iki cildini Səhənd sağlığında çətinliklər bahasına çap etdirə bilir. Bu kitab özündən sonra bir çox əsərlərin yaranmasına səbəb oldu.

Səhəndin Şəhriyarın özünü belə, ana dilində əsərlər yazmağa çağırması, Şəhriyarın isə ona böyük ehtiramla ithaf etdiyi “Səhəndiyyə” poeması Səhəndi ədəbi mühitin ən görkəmli şəxsiyyətlərindən, ustadlarından birinə çevirmişdi. Mübaliğəsiz demək olar ki, Cənubi Azərbaycan ədəbiyyatında Şəhriyardan sonra haqqında ən çox tədqiqatlar aparılan və əsərlərinə ən çox şeirlər, nəzirələr həsr edilən şair Səhənd idi.

İranda inqilabdan dərhal sonra demokratik ab-hava milli azadlıq ideallarının reallaşmağına böyük inam hissi yaratmışdı ki, bu da poeziyada öz əksini tapmışdı. Əli Təbrizlinin “Çalpapaq elim”, Həbib Sahirin “Yurd mahnısı”, Müzəffərin “Şanlı həqiqət”, Həsən Coşğunun “Təbrizim” şeirlərində İranda inqilabdan sonrakı gerçəkliyin özünəməxsus ovqatı əks olunurdu.

Cənubi Azərbaycanın demokratik ruhlu şairləri ya birbaşa, ya da dolayı yolla Şəhriyarın tutduğu mövqeyi dəstəkləyir, hər cür müharibələr kimi, İran-İraq müharibəsini də insanlara fəlakət, əzab, əziyyət gətirən bəla kimi pisləyirdilər.

Şairlər inqilabdan sonrakı dövrdə tarixi qəhrəmanlıq simvollarına müraciət etməklə xalqı milli istiqlal uğrunda mübarizəyə qaldırmağa, ona milli ruh aşılamağa çalışırdılar və bu bütün ədəbi proses üçün səciyyəvi cəhət idi. Azərbaycanın zorla cəlb olunduğu Qarabağ müharibəsində torpaqlarımıza xalqımızın mənəviyyatına, qürur və namusuna edilən təcavüzlər Cənubda yaranmış onlarla poetik əsərlərdə öz yanğılı ifadəsini tapır.

Məhsa Mehdilinin şeirlərindəki həzinlik, kövrəklik Qarabağ dərdindən, Təbriz sevgisindən gəlir, dünyaya etirazını bəzən vərdişə çevrilmiş hayqırtı ilə yox, təmkinli bir ovqatla ifadə edir. Ümumiyyətlə, formalaşmaqda olan Cənub şeirindəki bu üslubun, bu poetik təhkiyənin bədii uğurları göz önündədir.

Qarabağ müharibəsinin ilk günlərindən şair Əhəd Fərəhməndi yazdığı bayatılarda bu janrın klassik deyim tərzini müasir mövzu ilə məharətlə birləşdirir.

Bu dövrdə diqqəti çəkən mövzulardan biri də 1960-cı illərdən etibarən ağırlıq qazanmağa başlayan irfani və fəlsəfi şeirlərdir. Bu dövr şeirlərində, insan-həyat-əbədiyyət şeirin ana təməlləridir, eləcə də poeziya dini, fəlsəfi və siyasi və s. motivlərlə zənginləşir. "İnsan" məfhumu daha çox fəlakət və ağrılarla birlikdə işlənir. Bəzən də optimist notlarla gələcək həyat barədə düşüncələr ifadə olunur.

Üçüncü fəslin ikinci paraqrafı **"Çağdaş poeziyada üslubi təmayüllər"** adlanır.

Bu bölümdə son 40 ildə Cənubi Azərbaycan ədəbiyyatında yeni axın və tendensiyaların yaranmasından və 90-cı illər poeziyasının uğradığı yeni forma və məzmun keyfiyyətlərindən bəhs edilir.

Bulud Qaraçorlu Səhənd Cənub ədəbiyyatına xalqdan və keçmişdən gələn yeniləşmiş orijinal obrazlar və dolğun ictimai-siyasi məna ilə yanaşı, insani dəyərlərə sədaqət – "başqa birisinin varlığını dərk etmək" (Hümmət Şahbazi) kimi yeni məzmun gətirdi. Sahir formada, şeir biçimində; Səhənd isə yeni çağdaş məzmunlu şeirləri ilə. Sahirin şeirləri romantikası, Səhəndinki isə siyasi motivləri ilə seçilirdi. Əlirza Nabdilə gəlincə, o, klassik şeir ənənələrindən tamamilə uzaqlaşıb, poeziyaya yeni düşüncə tərzi, məzmun və sərbəst struktur, forma gətirdi. Bugünkü dillə desək, Cənubda şeiri modernləşdirdi.

Cənublu azərbaycanlılar ictimai-siyasi sahədə milli istək və arzularını reallaşdıra bilməsələr də, 1978-1979-cu illər İran inqilabı mədəni həyatın gedişində xüsusi bir canlanma, dirçəliş mərhələsinin yaranmasına səbəb oldu. İran inqilabından sonra Cənubi Azərbaycanda sanki bir mətbuat bumu yaşandı. Belə ki, bədii əsərlərin çoxu kitablardan çox qəzet və jurnallarda yayılırdı). Bir-birinin ardınca nəşr olunan qəzet və jurnallarda əsas yeri poeziya tuturdu. Çünki şeirlər başqa janrlara nisbətən daha böyük imkanlara malik idi və aktual mövzulara dərhal müdaxilə edirdi. Ümumiyyətlə, Cənub ədəbiyyatında bütün Şərqdə olduğu kimi, poeziya başqa janrlarla müqayisədə həmişə hökmran mövqedə olub.

Cənubi Azərbaycan ədəbiyyatında ağır terror və repressiyalara baxmayaraq, istibdad dövründə də doğma dildə xalqın narazılıq, nifrət və qəzəb duyğusunu əks etdirən şeirlər, hekayələr və s. yazılmış, folklor nümunələri toplanmışdır. Təbii ki, bu əsərlərin əksəriyyəti işıq üzü görməmiş, bəziləri isə məhv edilmişdi. "Sandıq ədəbiyyatı" adı qazanmış bu əsərlərin ələ düşəni yeri gəldikcə çap olunur, oxuculara çatdırılırdı. Cənubi Azərbaycan ədəbi fikrinin görkəmli nümayəndələri ətrafda baş verən olayları əks etdirən mətbu orqanlarına xalqla ünsiyyət tribunası kimi baxırdılar. Şairlər 1979-cu il aprel inqilabına qədər və ondan sonrakı dövrdə yazdıqları əsərləri dərc etdirməklə xalqa özünə qayıdış, özünüdərk ruhu aşılamağa, milli birlik yaratmağa çalışırdılar. Başlanğıcda xalq inqilabı olub, sonralar başqa məcraya yönələn inqilab xalqı ağ günə çıxarmadı. Bu isə öz bədii əksini Həbib Sahir, Haşım Tərlan, Çayoğlu, Firudin Həsari, Süleyman Salis və Məhzunun yazdığı tənqidi yazılarda tapdı. İnqilabın yaratdığı dalğa, sonra 8 il davam edən İran-İraq müharibəsi, daha sonra inqilabçı qüvvələrin məğlubiyyəti ədəbiyyata da təsir etdi. O dövrün ən uğurlu yazıçı və şairləri təqiblərdən əziyyət çəkdi, bir çoxu dünyasını dəyişdi.

Bundan sonra yeni fikirli gənc nəsil meydana gəldi. Həmin nəsil çağdaş ədəbiyyatın əsasını qoydular. Ədəbi meydana çıxan bu gənc şair və yazıçılar özlərindən öncəki nəsillərdən fərqli oldu. Bir qismi milli ruh, milli kimliyə söykənən, o biri qismi isə Qərb təmayüllü, avanqard şeir yazmağa meyilləndilər. Mövzu bolluğu, fikir sərbəstliyi, üslub çeşidliliyi ilk sırada nəzəri cəlb edir.

Meydanlarda, səngərlərdə yaranan döyüş ruhlu poeziya daha çox şüar, xitab xarakteri daşıyırdı. Folklora tapınan şairlər də yeni, fərqli bir söz deyə bilmirdilər. Milli oyanış ədəbiyyatı şeiri vətənə, xalqa, siyasətə qulluq etməyə yönəlmişdi.

Klassik poeziya yeni şeirlə əvəz olunmuş, cəmiyyətdə baş verən əqidə və düşüncə dəyişikliyi ona fərqli ideyalar axarı gətirmiş, ədəbiyyatda yeni istiqamət yaratmışdı.

90-cı illərdə ədəbiyyata gələn avanqard nəsil sənət prinsiplərini şüar, tələb, bəyanatlarla irəli sürən daşlaşmış, kirəcləşmiş mövqeləri birdəfəlik kökündən qoparmağa çalışırdı.

Yeni ədəbi nəslin yaradıcılığında illər boyunca xalqın nisgilinə çevrilən ana dilinin yasaqlığı, hələ də o taydakı doğmaların həsrəti, milli kimlik kimi dərdlərindən qaynaqlanan səssiz harayları yer alır. Onlar öncəki nəsillərdən fərqli olub, artıq vəsf, çağırış, şüar, tərif, bənzətmə kimi əski qəliblərdən uzaqlaşıb, əsərlərində ictimai məzmuna önəm verdilər.

Bu poetik nümunələrdə qəhrəmanlıq, vətənsevərlik tarixinin konkret qəhrəmanların simasında yüksək pafosla ifadəsini nağıl, ağı təhkiyəsini xatırladan bir biçimdə xalqın faciələrlə dolu olan həyat tarixçəsi əvəz edir.

Hümmət Şahbaziyə görə, Azərbaycan şairini fərdi yaşam durumu maraqlandırmır. Onu yalnız toplumsal həyat düşündürür. H.Şahbazi bunu Güney şeirində şəxsi təcrübələrin belə ali amalların, yüksək anlamların ixtiyarında olduğu ilə bağlayır.

Əgər 90-cı illərə qədər kimlik məsələsi, məğlubiyyət və iztirab ziyalılarda tarixin parlaq çağlarına dönmə, əcdadın ruhundan şövq və qüvvət alma, keçmişlə öyünmə ehtiyacı doğuran mövzulara geniş yer verilirdisə, artıq 90-cı illərin sonunda kımlik toxunulmazlığı və bir sıra kimliklə bağlı təəssübkeşlik, aşırı öyünmələr, yavaş- yavaş məntiqi düşüncələrlə tənqid edilməyə başlayır. Hümmət Şahbazi haqlı olaraq qeyd edir ki, *bunun özü də, kimlik haqda dərin düşünmək anlamındadır.*[27]

Ümumilikdə çağdaş ədəbi nəsli meydana gətirən ikimininci illər poeziyada müxtəlif üslubi meyillərin meydana çıxması ilə yadda qaldı. Onlar ədəbi nəsillərin heç birinə bənzəməyən, eləcə də bitdiyi kökün üzərində cücərən pöhrələr kimi köklərinə sadiq qala bildilər. Bu ədəbi nəsil içərisində bir çox şairlər yeni yaddaqalan əsərlərə imza atdılar.

O illərdən başlayaraq poeziyada elə imzalar meydana çıxdı ki, öz poetik istedadları ilə klassik janrların ən yaxşı nümunələrini yaratmaqla yanaşı, həm də gələcək poetik deyim tərzinin yönünü müəyyən etmiş oldular.

Ötən əsrin altmışıncı illərindən 2000-ci illərə qədər müəyyən

---

[27] Şahbazi, H. نقدشعرمعاصرآذربايجان // Nəğd-e şere moasere Azərbaycan (Çağdaş Azərbaycan şerinin tənqidi) / H.Şahbazi. – Təbriz: Əxtər yayın evi, - 1383//2004. - s.196

səbəblərə görə, o cümlədən dilin işləklikdən uzaq olması, çap məhdudiyyəti ədəbiyyatda, xüsusilə modern ədəbiyyatda böyük bir boşluğun yaranmasına gətirib çıxarmışdı. Tənqidçi Eldar Muğanlı bu illərə təkcə Səhər xanımın "Yaşıl mahnı" kitabı ilə bir körpü saldığını yazırdı.

Səhər xanımdan sonra isə 2000-ci illərdən bəri modern şeirə yeni ətir və rəng qatan Nasir Merqatı, Hadı Qaraçay, Kiyan Xiyav, Həmid Şahangi, Lalə Cavanşir, Saleh Ətayı və Rza Qəfari kimi şairlər meydana gəldi. Yeni ədəbi nəsil Səhər xanımın gətirdiyi metaforik düşüncə tərzinin yeni çalarlarını ortaya çıxarırdılar.

Gənc yazarlar modernizmin devizindən irəli gələn "qlobal düşünüb, lokal yanaşmaq" üsulundan yararlanırlar. Yeni nəsil anadilli yeni ədəbiyyat yaratmağa israrlıdır. Gənc yazarlar dünya ədəbiyyatını mənimsəməyə, onun ən gözəl nümunələrini ana dilinə çevirməyə və yeni üslublu şeirlər yazmağa səy göstərir, bir sözlə, planetar və düşüncə tərzinə yiyələnib, dünya bədii-estetik sənətinin qazandığı uğurlardan faydalanırlar.

Ötən əsrin 40-cı illərindən başlayaraq daim zirvədə olan həsrət ədəbiyyatının yerini yarım əsrdən sonra özündə kimlik axtarışını ehtiva edən dirəniş, müqavimət ədəbiyyatı tutdu.

İnqilabdan sonra folklora, milli poetik ənənələrə qayıdış, xüsusən "Heydər babaya salam" poemasından sonra klassik şeir, xüsusən divan ədəbiyyatından irəli gələn ənənələri səngitdi. İllərcə poetik dilə hakim kəsilmiş kanonları xalqın həyat tərzinin, milli düşüncəsinin əksi olan bədii təsvir elementləri əvəz etdi. Quzey Azərbaycan poeziyası ilə yaxın ünsiyyət şeir dilini sxematizmdən, yersiz belletrizmdən uzaqlaşmağa təkan verdi. Bunlarla yanaşı, Cənub ziyalılarının Avropaya mühacirəti, eləcə də müasir informasiya mübadiləsi Cənub poeziyasında modern şeir axtarışlarının əsas istiqamətlərindən birinə çevirdi.

Gənclər ədəbi klişe və şablonları sındırmaq iddiasında bulunub, əvvəlkiləri inkar edirlər. Sonuncular özlərini postmodernist cərəyanın nümayəndəsi adlandırırlar.

Cənub poeziyasının gənc nəslini birləşdirən ümumi amil onların vətən, milli dil haqqında eyni mövqedən çıxış etmələridir. Bu poeziyanın məzmunca hüdudları da genişdir. Azərbaycançılıq,

turançılıq düşüncəsi yeni Cənub şeirinin ideya zirvəsinə vüsət verməklə yanaşı, onun poetik ifadə imkanlarını, üslub çalarlarını da zənginləşdirir. Quzey Azərbaycan şeirinin üslubi təmayülləri Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz timsalında Cənub şeirinin yeni istiqamətdə formalaşmasında xüsusi yeri olduğu kimi, çağdaş türk şeirinin də mövqeyi hiss olunur. Özəlliklə Nazim Hikmət şeirinin intonasiyası dərhal duyulur. Digər tərəfdən, şairlər Avropa poeziyasının təcrübəsini də mənimsəyir, hətta bu gün dəbdə olan postmodernizmin təmsilçilərinin adlarını şeirlərinə gətirirlər.

İran və Cənubi Azərbaycan ədəbiyyatında postmodernist üslubun ən gözəl nümunələri Rza Bərahəniyə aiddir. Onun yaradıcılığının özəyini bir neçə dildə olan elementi orijinal bir şəkildə işlətmək, dildə süjet və məntiqiliyin, mədh, təşbeh və istiarənin olmaması, məna mücərrədliyi və dağınıq ardıcıllıq kimi xüsusiyyətlər təşkil edir.

R.Bərahəninin Azərbaycan türkcəsində yazdığı "Həh!" şeiri də modernist düşüncənin məhsuludur

Heca vəznində gözəl nümunələr yaradan və Cənubda milli dil hadisəsi sayılan Məhəmmədhüseyn Şəhriyar, Həbib Sahir, Bulud Qaraçorlu Səhənd kimi əsərlərində xalqın milli kimlik duyğusu, milli yaddaşı, milli koloritini əks etdirən ədəbi nəslin nümayəndələrindən biri də Nadir İlahidir.

Nadir İlahinin şeirləri klassik şeir üslubuna yaxındır. Rübai və qəzəllərlə yanaşı, sərbəst şeirlər də yazır. Bu zaman misraları başdan-başa rəngarəng xəyallara güzgü tutsa da, əsas poetik predmeti gizlətməsi onu divan şeiri estetikasına yaxınlaşdırır. Bununla bərabər, şeirlərində Qərb imajist şairlərinin də təsiri duyulur:

*Saçlarının həsrətindən,*
*Dedim darağa dönəcək.*
*Ay gülüm! Nə biləydim mən*
*Əlim orağa dönəcək.*[28]

---

[28] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası (Çağdaş dövr) / – Bakı: Teas Press Nəşriyyat evi, – 2015. – s.302

Səid Muğanlının şeirlərindəki Bütöv Azərbaycan dərdi, vahid Azərbaycan dili ideyası onun poetik sintaksisini bəlirləyir. S. Muğanlının sevgi ilə bağlı fərqli fikirləri var:

*Sevmək bir intihardır*
*Qar çiçəgi günəşə baxib öldü...*
*Sevmək bir ittihamdir.*[29]

Heydər Bayatın yaşadığı ölkə haqqında poetik düşüncələri 80-90-cı illər Cənub şeirindəki poetik üslubdan tamam fərqlidir. Onun şeirlərindəki ənənəvi sarsıntı, məyusluq və iztirab ovqatının alt qatında kin, nifrət və ironiya var.

Göründüyü kimi, poeziyada metafizik düşüncə tərzi qabarıq görünür. Biri digərini inkar edən poetik təhkiyədə məntiqi yekun yenidir, gözlənilәndir, lakin vərdiş olunan deyil.

Ramin Cahangirzadənin şeirlərində gözlənilməz poetik keçidlər "daş" məfhumuna verilmiş poetik mənalar bənzərsiz şeir nümunələrinə çevrilir.

*Daşların çatlağından çıxan çiçəklər*
*Daş olmasınlar deyə*
*Baş qaldırırlar.*[30]

Ramin Cahangirzadənin daşla bağlı poetik yozumları kiçik bədii kəşf səciyyəsindədir.

Yeni nəsil yazarlarının hər birinin öz özəllikləri var. Kiyan Xiyav dünya ədəbiyyatında qəbul olunmuş poetik prinsiplərdən yararlanıb, ana dilində bənzərsiz şeirlər yazmağa nail olur.

*Bir dib otaq var içimdə*
*Jan Pol Sartrın "Böyük faciə"si qədər macəralı.*[31]

---

29 Yenə orada. – s.214

30 Cahangirzadə, R. Daşlar. Şeir toplusu. Dayaq yayınları / R.Cahangirzadə. – Bakı: Nurlan, – 2011. – s.56

31 Xiyav, K. Ah, gözlərində doğulmaq / K.Xiyav. – Tehran: Əndişeye Nev

Əziz Səlami siyasi mühacir ömrü yaşayan yazarlardandır. Yaşadığı ölkədə alman dilini də mükəmməl mənimsəyən şair bu dildə yazılmış, eləcə çin, yapon, yəhudi, ispan və alman ədəbiyyatından olan şeir nümunələrini dilimizə çevirmişdir.

Müşahidə edilir ki, inqilabi hərəkat dövründə özünü yenidən tapan xalq ədəbi-bədii dil mövcudluğunun bütün formalarından maksimum istifadə etməyə çalışır, köhnə formanın yeni imkanlarını üzə çıxarır.

İranda onlarla yeni ədəbi cərəyanlar, nəzəriyyələr mövcuddur. Müasir şair və tənqidçilərdən olan Rza Bərahəni Nima Yuşic və Əhməd Şamlunun şeir və nəzəriyyələrini sintez edərək, "Dil" adlı bir cərəyan, eləcə də yeni bir nəzəriyyə irəli sürmüşdür. Onun fikrincə, müasir şeir bu nəzəriyyəyə əsaslanmaqla tənəzzül və durğunluqdan və ağ şeirin təsirindən qurtara bilər. R.Bərahəninin belə tərzli şeirlərinin bir çox ardıcılları olmuşdur. O, modernist şair sayılsa da, lirikasında klassik Şərq şeirindən gələn çalarlar da görünməkdədir.

Gənc yazarlar arasında da ədəbi əsərlərə eksperiment yanaşmalar az deyil. Hüseyn Süleymanoğlu "Bilimsəl", Hadi Qaraçay "İctimai–himasi", Nadir Əzhəri "Donuq şeir planı", Ziba Kərbasi "Nəfəs" və Ərəstu Mücərrəd "Nano" şeirləri ilə Cənubda poeziya sahəsində xüsusi ədəbi tərz yaratmağa nail olublar.

Bu gün nəşr və təbliğ imkanlarının məhdudluğuna baxmayaraq, Cənubdakı ədəbi fikrin mənzərəsi çox rəngarəngdir. Şair və yazıçılar dünya ədəbiyyatında gedən ədəbi proseslərlə tanış olub, yaratdıqları əsərlərində yeni janrlar, bədii təsvirlər və təzə fikirlər meydana gətirə bilirlər. Yazarlar sərbəst biçim, modern üslub və təsvir vasitələrindən yararlanıb real həyat problemlərini əks etdirməyə can atırlar. Mövcud ədəbi prosesin dil, sənətkarlıq baxımından problemləri olsa da, ədəbiyyat milli varlığını yeni bir vüsətlə təsdiq və inkişaf etdirir, dünya ədəbiyyatının yeni meyillərinə qovuşmaq üçün axtarışlarını davam etdirir.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticə və

---

(Fərzanə) yayın evi, – 1387 (2007- 8). – s.98

müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır.[32] [33] [34] [35] [36] [37] [38] [39] [40]

Dissertasiyanın IV fəsli "**Milli mənəvi dirçəlişdə nəsr əsərlərinin rolu**" adlanır. "**Nəsrin təkamülü və formalalaşması**" adlı birinci yarımfəsildə nəsrin formalaşmasında milli ədəbiyyatdan gələn ənənələr müəyyənləşdirilir və göstərilir ki, Cənubda müəyyən səbəblər üzündən (nəşr edilmə imkanının məhdudluğu, ənənəvi Şərq mühitinin poeziyaya üstünlük verməsi və s.) nəsr nümunələri az yazılmışdır.

Əsrlər boyu Azərbaycanda, ümumən Şərq ədəbiyyatlarında nəsr ikinci sırada olmuş, klassik ədəbiyyatın aparıcı qolu məhz nəzmlə yazılmış ədəbi nümunələr olmuşdur. Cənubi Azərbaycanda da nəsr poeziyaya nisbətən zəif inkişaf etmişdir.

Azərbaycanda nəsrin təşəkkülü, özünütəsdiqi yaxın yüzilliklərə təsadüf edir. Ədəbi-bədii dilin ləng inkişafı da Cənubda epik əsərlərin yaranmasını ləngitmişdir.

Ötən əsrin 40-cı illərində Cənubi Azərbaycanda yeni demokratik ab-havanın yaranması və İslam İnqilabının gətirdiyi

---

[32] Məmmədli, P. Dr. Mehemmed Taki Zehtabi. Azerbaycan türkleri önderleri. – Ankara: Berikan yayın evi, 2013, –s.447-464

[33] Türk dünyasının Məmməd Akif Ərsoy, Əhməd Cavad və Mir Mehdi Etimad kimi ünlü ədəbi şəxsiyyətlərinin yaradıcılığında ortaq mövzu // "Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid". Beynəlxalq konfransın materialları. Qafqaz Universiteti, – Bakı: – 16-18 may, – 2013, – s.333-339

[34] Literary Process in Southern Azerbaijan. Visions of Azerbaijan. May-june, – 2015, –p.102-106

[35] Xalqının bədii salnaməsini yaradan şair // Ədəbi əlaqələr, – 2016. X, – s.281-291

[36] Güney Azerbaycan'da Çağdaş Edebî Süreç // – Ankara: Uluslararası Modern Türklük Araştırmaları Dergisi, Ankara Üniversitesi Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü, – 2016 Mart. Cilt 13, Sayı 1, – s. 125-140

[37] "Varlık"inda yaşatan Cevat Heyet // Sinop Üniversitesi Sosyal Bilimler Dergisi, – 2017. Cilt: I, Sayı: 2, Yıl: Temmuz-Aralık, – s.17-26

[38] Güney Azerbaycanlı romantik bir şair, gerçekçi bir gazeteci: Hamid Nutki // Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD), – 2017. C.1, s. 2, – s.16-24

[39] Xalqını həm ağladan, həm də güldürən şair // Filologiya məsələləri, – 2018. № 2, – s. 337-342

[40] İranda türkçülüyün ideoloqu // Filologiya məsələləri, – 2018. 4, – s. 59-63

yeniliklər, təbii ki, ədəbiyyatdan yan keçməmişdi. Xüsusən istənilən dövr üçün ən çevik janr hesab edilən hekayə janrında yaranan dəyişmələr bu dövrlərdə qabarıq nəzərə çarpırdı.

1978-1979-cu illər İran inqilabdan sonra bu istiqamətdə müəyyən işlər görülmüşdür. Xüsusən mətbuatda yayğın olan publisistikanın zəngin ifadə çalarları nəsrin inkişafına zəmin yaratmışdır.

Cənubi Azərbaycanda nəsrin inkişafı üçün həyat materialı zəngin olmuşdur. Burada baş verən hadisələr, əsasən, Şimalda böyük bir ədəbiyyatın mövzusu kimi özünün tarixi ədəbi-bədii ənənələrini yaratmışdır.

Zeynalabdin Marağalı Azərbaycanda, eləcə də İranda realist romanın banisi kimi tanınır. Ə.Talıbov İranda yeni ədəbi nəsrin mühəndisi sayılır. Bu yazıçılar farsca yazsalar da, çox zaman baş qəhrəmanları Azərbaycan türkü olmuş və nəsrə Azərbaycan düşüncə tərzini gətirmişlər.

Cənubi Azərbaycanda bir çox nəşrlərin nəsr nümunələrində əsas mövzu milli-azadlıq ideyaları, azadlıq axtarışı, ictimai-siyasi ədalətsizlik problemidir. Bu əsərlərin dil, təhkiyə baxımından üslubuna gəldikdə isə onlara nağıl, əsatir üslubu səciyyəvidir. Yazılmış əsərlərdə gələcəyə inam ciddi və səmimi bir şəkildə təsvir olunur. Seçilən qəhrəmanlar, çəkdikləri çətinliklərə və yaşadıqları tragediyalara baxmayaraq, həyatda daim qalib seçilir. Zeynalabdin Marağayinin, Qulamhüseyn Saidinin üslubu bugünkü nəsrdə özünü göstərir. Onların əsərləri farsca yazılsa da, öz quruluşu baxımından müasir nəsrə təsir edir.

Ümumilikdə görürdükdə nəsr sahəsində ən uğurlu əsərlər Güneydən Quzeyə mühacirət edən Pənahi Makulu, Fəthi Xoşginabi, Qəhrəman Qəhrəmanzadə və bu kimi yazıçıların qələminə mənsubdur.

Peşəkar ədəbiyyatın yaranmaması tək dil problemi ilə deyil, həm də tənqidçilərin olmaması ilə bağlıdır. Son illərin əlamətdar yaradıcılıq hadisələrindən biri də ədəbi tənqidə marağın artmasıdır. Hümmət Şahbazi, Cəfər Bozorgəmin, Əhməd Alov, Həsən İldırım, Eyvaz Taha, Nadir Əzhəri, Məliha Əzizpur, eləcə də Eldar Muğanlı ordusunun yetişməsi, yəqin ki, ədəbiyyatın inkişafına meydan

verəcək. Cənubda bu gün mövcud olan ədəbi istiqamətlərin yaşarlığını ehtiva edən sənətkarlıq məsələlərinin üzə çıxarılmasına yardımçı olacaq.

Cənubda ilk nəsr örnəkləri 1920-ci illərin ortalarına aiddir.

Beləliklə, 1945-ci ildə qurulan Milli Hökumətlə birlikdə Cənubi Azərbaycan nəsri, böyük bir təcrübə keçib tamamilə inqilabı bir xarakter aldı. Bu dövrdə bir sıra anadilli qəzet və jurnalların nəşri nəsr sahəsində əhəmiyyətli bir zəmin oldu. 1978-1979-cu illər İran İnqilabından sonra Cənubda ədəbi-bədii söz irəliyə doğru dəyişdi. Şair və yazıçılar ana dilində yazmağa başladılar. Ədəbiyyat yeni bir mərhələyə qədəm basırdı. Mətbuatda artıq hekayə örnəkləri görünməyə başlayırdı. Azərbaycan türkcəsində nəşr olunan kitabların sayı get-gedə çoxalırdı. Hekayələrin təhkiyəsində və məzmununda yenilik olmasa da, artıq nəsrin inkişafı göz qabağında idi.

Mətbu orqanlarında publisistikanın inkişafı nəsr təfəkkürünün də inkişafına təkan verdi. Özəlliklə Azərbaycan dilində qəzet və jurnalların çoxalması, onlardan bir qisminin müasir tələblərə uyğun yüksək səviyyədə çap olunması anadilli nəsrin formalaşması üçün də real zəmin yaratdı və nəsr, əsasən, 80-ci illərin ikinci yarısından inkişaf etməyə başladı. Nəsr örnəklərində içərisində hekayə daha çox yığcam, konkret janr olduğu üçün cənublu yazıçıların diqqətini daha çox cəlb edə bilmişdi.

Mətbuatda cənublu yazıçılarla yanaşı, dünya yazarlarından və Şimalı Azərbaycan yazıçılarının əsərlərindən parçalar nəşr olunurdu. O dövrdə mətbuat səhifələrində Gəncəli Səbahı, Həbib Sahır, Murtuza Məcidfər, Məhəmməd Qazı, Əlif Nuranlı, Əlirza Zihəqin nəşr nümunələri daha çox yer tuturdu. Qələmə alınan hekayələrin ana xətti, xalqın güzəranı, məişəti, kəndli və mülkədar arasındakı toqquşma və münaqişələr üzərində qurulmuşdu. Azərbaycanın milli məsələləri ilə bağlı yazılar da aparıcı mövzulardan idi. Nəsr əsərləri içərisində ideoloji baxımdan yazılan yazılar da yox deyildi.

Bu dövrdə nəşr olunan Gəncəli Səbahinin "Şərəfli Ölüm", Qulamhüseyn Saidinin "Dilənçi", Səməd Behrənginin “24 saat yuxuda və ayıqlıqda”, eyni zamanda, Həbib Sahirin "Vaqon" və

Rəhim Dəqiqin "Həcər" roman və hekayələri, Cənubi Azərbaycan nəsrində ön çərgədə gəlirdi. Əli Daşqının "Kənd gəlini", "Buğda gülü", "Torpaq qoxusu"; Hüseyn Feyzullahi Vahidin hekayələri və "Aydın Sərdar" adlı əsəri; Aqşin Ağkəmərlinin kiçik hekayələri və “Dondurmaçı" toplusu, Rəsul Qurbani Müqəddəmin "Quyruqlu çərpələng"i, M.Kaviyanpurun "Dağlar qızı" romanı, Hamid Arğışın "Naxışlı dəsmal"ı və Nasir Menzurinin "Son nağıl, son əfsanə" əsərləri o illərdə yaranan ədəbiyyatın ən uğurlu nümunələrindən sayıla bilər.

Gənc nəsli nəsr daha artıq cəlb edirdi. 1997-ci ildən etibarən diqqətəlayiq nəsr əsərləri görünməyə başladı. Çap olunan kitablardan M.Ağdaşlının “Şaman” (roman), Baqır Rəşadətinin “Altun xəyal quşu”, Əziz Möhsüninin “Yurd”, Əli Daşqının “Kənd gəlini”, Toğrul Atabayın “Manqurt”, Murtuza Məcidfərin “Küçələrə su səpmişəm...”, eləcə də Məmmədrza Kəriminin tərtib etdiyi “Sənə sarı”, Nadir Elxanın isə “Yeddi nar” adlı hekayə topluları buna gözəl örnəkdir.

IV fəslin ikinci paraqrafında **“Nəsrin inkişafında yeni mərhələ”** prosesi nəzərdən keçirilir və ümumiləşdirilir.

Cənubi Azərbaycanda Pəhləvilərin hakimiyyəti illərində fars olmayan yerli xalqlara, özəlliklə Azərbaycan türklərinə qarşı assimilyasiya siyasəti aparılırdı. Ana dilində nəşrlərin çapına qadağa qoyulur, ictimai yerlərdə ana dilinin işlədilməsinin qabağı alınırdı. Yazarlar mətbu səhifələrində belə hallara qarşı etiraz səslərini qaldırırdılar.

Səməd Behrəngi ədəbiyyata şair kimi qədəm qoymuşdu. Lakin o, dostu Behruz Dehqani ilə birgə xalq içindən topladığı nağıllarla, yazdığı hekayələrlə yadda qaldı. Zəngin ənənəsi olmayan bir ölkədə gənc yazarın nəsrə üstünlük verməsi təsadüfi deyildi. O, böyüməkdə olan nəsli yaşlılara rəğmən daha mübariz, haqsızlığa, ədalətsizliyə barışmaz ruhda görməyi arzu edirdi.

O illərdə Cənubi Azərbaycandan olub İrana dünya miqyasında şöhrət qazandıran bir yazıçı Qulamhüseyn Saidi idi. Ssenarisinin müəllifi olduğu filmlər beynəlxalq aləmə səs salmış, İran sinemasının qızıl fonduna daxil olmuşdu. Bu gün İran filmlərinin Avropada yüksək ödüllər alması da onun açdığı cığırla, yaratdığı

məktəblə birbaşa bağlıdır.

Qulamhüseyn Saidi yaratdığı əsərlərlə həm də İranda mistik (sehrli) realizmin əsasını qoyub.

Kanadada (Kanada "Pen" klubunun keçmiş sədri) siyasi mühacirət kimi yaşamış dünya şöhrətli təbrizli yazar Rza Bərahəni "İranda ədəbi tənqidin babası" sayılır. Dr. Bərahəninin romanları, şeirləri və digər əsərlərində həmişə Azərbaycan mövzusuna geniş yer verilir.

Göründüyü kimi, ana dilinin tərənnümü, bu dildə yazmaq tək dərin, ülvi sevginin deyil, Cənubi Azərbaycanda həm də özünüqoruma instinktidir. Kimliyini, ana dilini yasaqlayan, onu aşağılayan qüvvələrə, rejimə, direniş simvoludur.

Xalqın doğma dilində dərsliklərin və digər nəşrlərin çapına qadağalar qoyulmasına və ictimai yerlərdə ana dilində danışığa yol verilməməsinə etiraz inqilabdan sonra nəşr olunan mətbu orqanlarında mühüm yer tutur.

Bu dövrdə vətənpərvərlik, ana dilinə sevgi, qayğı hisslərinin aşılanmasında nəşr olunmuş hekayələr də mühüm yer tutur. Murtuza Məcidfər, Toğrul Atabay, Həmid Arğış və Məhəmmədtağı Zehtabinin yazdığı hekayələr söylənilənə əyani sübutdur.

Nəsrdə XX əsrin sonu XXI əsrin əvvəllərindən Azərbaycan türklərinin Qarabağ faciəsi, Azərbaycan xalqının haqq səsinin boğulması, bu ədalətsiz müharibənin doğurduğu nisgil aparıcı mövqe tutur.

Görkəmli sənətkarlar çox zaman ömürlərinin ixtiyar çağında keçmişə nəzər salır, öz xatirələrini qələmə alırlar ki, bu tipli əsərlərə xatirə ədəbiyyatı, yaxud memuar deyilir. Seyid Cəfər Pişəvərinin "Qəsri-Qacar" həbsxanasında yazdığı "Zindan xatirələri", Cəncəli Səbahinin "Ötən günlər", Haşım Tərlanın "Gümüşü pencək", Rza Bərahəninin "Yurdumun insanları" və bu kimi başqa əsərlər memuarın gözəl nümunələri hesab oluna bilər.

Zöhrə Vəfayi Cənubda Mirzə Cəlilin klassik üslubunu memuar-xatirə üslubunda davam etdirən yazıçılarındandır

Nasir Mənzurinin yazdığı əsərlərinin özəyində folklor motivləri geniş yer tutsa da. müəllif əksər əsərlərini memuar-xatirə üslubunda yazmışdır.

Cənub nəsrində sadə və yoxsul insanların acınacaqlı həyatı tez-tez bədii obyektə çevrilir. Hakimiyyətin xalqdan uzaqlığı, onun faciəvi həyat tərzinə biganəliyini, laqeydliyini ustalıqla canlandırılır.

Nurlanın "Səlmə xala" adlı hekayəsi şahlıq rejimində xalqın ağır həyatı, zəhmət adamı və onun qayğıları əks olunub. Həmin dövrün uğurlu nəsr əsərləri sırasında J.Əlinin "Tamah dişi", Cücə Bağırın "Qonaq qabağına qoymalı", Nurlanın "Çəyirtkə" adlı hekayələrində milli ruh, mühüm tarixi hadisələrə çağdaş baxış və s. problemlər müəllifi düşündürmüş, bu sahədə orijinal əsərlərin yaranmasına səbəb olmuşdur.

Pəhləvi rejimi tərəfindən yeridilən assimilyasiya siyasəti, ana dilinin yasaqlanması, farsca danışığın məcburi olması və xalqın ölkə olaylarından xəbərsiz saxlanması bu dövrün əsərlərində daha şox hüzn, kədər, qorxu və dəhşəti yansıtmağa zəmin yaradırdı. Bu illərdə İranda qorxu və ümidsizliyi əks etdirən bir "Dəhşət və qorxu ədəbiyyatı" yaranırdı. "Dəhşət ədəbiyyatı"nın ən parlaq təmsilçilərindən biri də Q.Saidi idi.

Beləliklə, Cənubda nəsrin təşəkkülü, inkişaf istiqamətləri xalqın tarixi taleyi ilə bağlı gur ictimai-siyasi hadisələrin fonunda baş vermişdir. Məlum səbəblərdən ilk nümunələri fars dilində yaranan Cənub nəsrini yaradanları qınamaq yersiz olardı. Lakin farsca yazılan bu əsərlərin mərkəzində Azərbaycan türkünün xarakteri, həyat tərzi, Vətən haqqında idealları dayanır. Bu nəsr nümunələrində türk folklorunun bədii fiqurları yad bir dildə milli düşüncə elementi kimi çıxış edir. Bu nəsr nümunələri farsca yazılsa da, Cənubda türk dilində nəsrin formalaşmasına ciddi zəmin oldu.

Əsasən, hekayə janrında yazılan əsərlərdə dünya ədəbiyyatının təsiri aydın görünür, bəzən nağıl, dastan poetikası önə keçir, bəzən ədəbi dil normaları pozulsa da, həyat materialı, canlı yazıçı müşahidələri üstünlük qazanır. Cənubda milli münasibətlər sahəsindəki şovinizmin şəxsiyyətin əsas mənəvi problemlərinə çevrildiyini, orada güclü milli hisslərin qabarmasına apardığını görürük.

1990-cı illərdən başlayaraq ədəbi mühitdə bir sıra nəsr əsərləri görünməyə başlayır. İsmayıl Hadinin "Qara çuxa", M.T.Zehtabının

“Qoy olsun on” (hekayə toplusu), Nasir Mənzurinin “Son nağıl – son əfsanə” əsərləri həmin illərin məhsuludur. 1997-ci ildə islahatçıların hakimiyyətə gəlişi azərbaycanca nəşrlərin güclənməsinə imkan yaratdı. Belə ki, Toğrul Atabayın “Manqurt”, M.Ağdaşlının “Şaman” romanı, Əli Daşqının “Kənd gəlini”, Mürtəza Məcdfərin “Küçələrə su səpmişəm”, Bağır Rəşadətinin “Altun xəyal quşu”, Əziz Mohsininin “Yurd” kimi nəsr əsərləri çap olundu. 2006-cı ildə ölkədəki seçkilərdən sonra türkcə nəşriyyələrdə bir canlanma və kəmiyyət dəyişikliyi yarandı.

Beləliklə, nəşriyyələr roman, memuar, oçerk və digər janrlarda ara-sıra dərc olunan ədəbi-bədii yazılar istisna edilərsə, öz səhifələrində yalnız hekayə janrına üstünlük verirdilər. Bunun da başlıca səbəbi, hər şeydən əvvəl, yazıçıların hekayə janrı vasitəsilə aktual həyat hadisələrini konkret lövhələrdə işıqlandırması, günün ən vacib problemlərinə vaxtında cavab verməsi idi.

Bu meyilin güclənməsi Cənubi Azərbaycan ədəbiyyatında yeni nəsrin təməlini qoymuşdur. Nasir Mənzurinin “Avava”, “Qaraçuxa”, M. R. Ləvayinin “Arbatan”, Saleh Ətayinin “ Don Kixot və dəli Dömrül korpusu”, Eyvaz Tahanın “Qurşun hardan açıldı”, Vali Gözətənin “Mamac”, eləcə də Ruqəyya Kəbirinin “Evim”, Sayman Aruzun “100 ilinqilab” romanları çağdaş Güney nəsrinin dəyərli əsərləri sırasında durur.

Cənubi Azərbaycan nəsrində aparıcı mövzu azadlıq, kimlik axtarışı ilə bağlıdır. Nəsr əsərlərinin mərkəzində Cənubi Azərbaycan xalqının yaşantıları və iztirablarıdır. Ancaq bu iztirablar daha çox keçmişdə yaşanmış faciələrin dilə gətirilməsi üstündə köklənir.

Müəllifləri, təxminən, eyni mətləblər düşündürür: ana dili, milli mənəvi keçmiş, xalqın ağır güzəranı və s. problemlərin bədii həlli isə müxtəlif səviyyədədir. Professional yazıçılıq vərdişini çox zaman emosional təsvirlər, birbaşa çağırış üslubu əvəz edir. Lakin bununla belə, bu nümunələr böyük ədəbi-tarixi əhəmiyyətə malikdir. Nəsr dilimizin cilalanması, nəsr poetikasının təkmilləşdirilməsi mənasında ədəbi prosesdə hər bir əsərin özünəməxsus yeri vardır.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticə və

müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır [41] [42] [43] [44] [45] [46]

Dissertasiya işinin **Nəticə** hissəsində tədqiqat zamanı irəli sürülmüş mühüm elmi müddəalar ifadəsini tapmışdır. Dövri mətbuat və arxiv materialları əsasında Cənubi Azərbaycanda ədəbi hərəkatının ideya-bədii problemləri, o cümlədən son 40 ildə ədəbi inkişaf istiqamətləri araşdırılır.

Əsrlərlə ölçülən zaman hüdudlarında vahid bir xalqın mənəvi ünsiyyətinə qoyulan qadağalar, şovinist çar, sovet və şahlıq rejimləri Azərbaycan xalqının mənəvi tərəqqisinə ciddi maneələr yaratsa da, onun gedişatını dayandıra bilməmişdir. Bu prosesdə mətbuat böyük bir tarixi missiyanı öz üzərinə götürmüş, tarixin bəxş etdiyi məhdud bir vaxt çərçivəsində belə xalqın ictimai şüuruna ciddi təsir etmişdir.

Təhlillər göstərir ki, siyasi məhdudiyyətlərə baxmayaraq, Cənubdakı son 35-40 ildəki hadisələr mətbuatın və ədəbiyyatın milli mahiyyətini müəyyən etmiş, ədəbi-bədii fikrə böyük təsir göstərərək onun inkişaf mərhələlərinə yön vermişdir.

Cənublu azərbaycanlılar ictimai-siyasi sahədə milli istək və arzularını reallaşdıra bilməsələr də, 1978-1979-cu illər İran inqilabı mədəni həyatın gedişində xüsusi bir canlanma, dirçəliş mərhələsinin yaranmasına səbəb oldu. İnqilabdan sonra Cənubi Azərbaycanda

---

[41] Məmmədli P. Rza Bərahəninin mühacirət dövrü yaradıcılığında Azərbaycan mövzusu // "Azərbaycan Mühacir ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr"; II Beynəlxalq elmi konfrans, – Bakı: – 10-12 oktyabr, – s.271-282

[42] Duygu ve ıstıraplarını pandomimlerine yansıtan yazar: Gulamhüseyn Saidi // Asya Studies (Academic Social Studies), – 2017. Number:1, Autumn, – s.34-41

[43] Cənubi Azərbaycanda nəsrin formalaşma mərhələləri // Qərbi Kaspi Universiteti, Elmi Xəbərlər, humanitar elmlər seriyası, – 2019. № 2, – s.53-61

[44] Eminent writer of postcolonial literature // Evalution of social changes and historical events based on health, economy and communication in a globalizing world / editor: Leyla Aydemir, – Bursa: DORA Printing-Publishing Distribution Ltd., – 2019, – p.177-198

[45] Xalqının sevgisinə sadiq qalan şair vətəndaş // Müqayisəli ədəbiyyat-şünaslıq / AMEA Nizami Gəncəvi ad. Ədəbiyyat İnstitutu: Beynəlxalq elmi jurnal, – 2020. – № 2. – s. 54-60

[46] Pioneer of Southern Azerbaijan Children's Literature – Samed Behrengi, //Bilig, Journal of Social Sciences of the Turkic World Türk (Dünyası Sosyal Bilimler Dergisi), - Ankara, 2022. № 1, – s. 123-136

sanki bir mətbuat bumu yaşandı.

1978-79-cu illər İran inqilabından sonra yaradıcı ziyalılarda millətsevərlik, türklük hissləri daha da güclənmiş, ədəbi prosesdə canlanma baş vermişdi. 1980-90-cı illərdən başlayaraq, siyasi gerçəklikdə baş verənlər ədəbi prosesin də şaxələnməsinə, milli ədəbi-qaynaqlara qayıdışa səbəb oldu. Milli düşüncənin daşıyıcıları olan janrlar mətbuatda üstünlük qazandı.

Ağır terror və repressiyalara baxmayaraq, istibdad dövründə də doğma dildə xalqın siyasi rejimə nifrət və qəzəb duyğusunu əks etdirən şeirlər, hekayələr və s. yazılmış, folklor nümunələri toplanmışdır. Təbii ki, bu əsərlərin əksəriyyəti işıq üzü görməmiş, bəziləri isə məhv edilmişdi. "Sandıq ədəbiyyatı" adı qazanmış bu əsərlərin ələ düşəni yeri gəldikcə, oxuculara çatdırılırdı. Şairlər 1979-cu il aprel inqilabına qədər və ondan sonrakı dövrdə yazdıqları əsərləri dərc etdirməklə xalqa özünə qayıdış, özünüdərk ruhu aşılamağa, milli birlik yaratmağa çalışırdılar. Başlanğıcda xalq inqilabı olub, sonralar başqa məcraya yönələn inqilab xalqı ağ günə çıxarmadı. Bu isə öz bədii əksini Həbib Sahir, Haşım Tərlan, Çayoğlu, Firudin Həsari, Süleyman Salis və Məhzunun yazdığı tənqidi yazılarda tapdı. İnqilabın yaratdığı dalğa, sonra 8 il davam edən İran-İraq müharibəsi, daha sonra inqilabçı qüvvələrin məğlubiyyəti ədəbiyyata da təsir etdi.

Şimali Azərbaycanın müstəqillik əldə etməsi,onun dünyada söz sahibi olması Cənubda milli özünəqayıdışa böyük təkan verdi. Arazın hər iki tayında vahid bədii dünyagörüşün ortaq ədəbi prosesin formalaşma prosesi ortaya çıxdı. Ana dili uğrunda, milli kimlik uğrunda mücadilə nəticəsiz qalmadı. Farsca yazan yazarlar ana dilinə qayıdaraq yeni əsərlər yaratdılar.

Təhlillər göstərir ki, əgər 90-cı illərə qədər ziyalılarda tarixin parlaq çağlarına dönmə, keçmişlə öyünmə ehtiyacı doğuran mövzulara geniş yer verilirdisə, artıq 90-cı illərin sonunda, kımlik toxunulmazlığı və aşırı öyünmələr, yavaş yavaş tənqid hədəfinə çevrildi.

Uzun onilliklər boyu müxtəlif siyasi-ideoloji, mili-mədəni cərəyanlara, ziyalılara məxsus nəşrlər, eyni zamanda digər kütləvi informasiya vasitələri artıq ana dili, milli mədəniyyət və milli

kimlik məsələlərinin yeganə birləşdirici faktor olduğunu dərk edir və milli özünüdərkə aparan yolun milli maarifçilikdən keçdiyini bilir, bu sahəyə diqqəti artırırdılar.

Beləliklə, 1978-1979-cu illər İran inqilabından sonrakı illərdə İranda anadilli mətbu orqanlarının fəaliyyətini izləsək, aşağıdakı nəticəyə gəlmək olar.

- Anadilli mətbu orqanlar Azərbaycan türklərinin milli şüurunu formalaşdırıb, xalqın özünəqayıdışına səbəb oldu.
- İranda türk dilinin varlığını qoruyub saxlayıb,ədəbi dil məsələsini həll etməyə çalışdı.
- Zəngin milli-mənəvi dəyərləri, türklüyü ilə fəxr edən yeni nəsillə yanaşı, Ana dilində yazıb yaradan yeni ədəbi nəsil yetişdirdi.

Tədqiqata cəlb edilən məsələlərdən biri də Cənubda milli bədii düşüncənin əsas göstəricisi olan folklordur.Uzun zamanlar folklorun xalq yaradıcılığınmın özünü qoruma instinkti bütün məhdudiyyətlərə qalib gəlmişdir. Ayrı-ayrı kitablarda və mətbuat səhifələrində dərc edilmiş şifahi xalq ədəbiyyatı örnəkləri bir daha bunu sübuta yetirir ki, Cənubda ana dilində yazılı ədəbiyyatın inkişafına istənilən imkan olmasa da, Cənub folkloru öz ilkinliyini və və milli düşüncəni qoruyub saxlamışdır.

Təhlillər göstərir ki, klassik Azərbaycan ədəbiyyatı nümunələrinin aşkara çıxarılması, araşdırılması və nəşrə hazırlanması istiqamətində cənublu araşdırmaçıların xidmətləri əvəzsizdir. Ziyalılar mətbuat səhifələrində klassik ədəbi irs barədə dərc etdiyi materiallarla o taylı-bu taylı Azərbaycan tədqiqatçılarının axtarışlarının xalqa çatdırılmasının və ədəbiyyat tariximizin dolğun və bütövləşdirilməsinə xidmət etmişlər.

Milli oyanış ədəbiyyatı şeiri vətənə, xalqa milli siyasətə xidmətə yönəlmişdi.

Klassik poeziya yeni şeirlə əvəz olunmuş, cəmiyyətdə baş verən əqidə və düşüncə dəyişikliyi ona fərqli ideyalar axarı gətirmiş, ədəbiyyatda yeni istiqamət yaratmışdı. Bu dövr şairləri şeirdə düşüncə dəyişiklikləri yaratmaqla əsərlərində insan, cəmiyyət və onun problemlərindən bəhs etməklə ədəbi mühitdə digərlərinə örnək oldular.

Tədqiqat nəticəsində aydın olur ki, XIX-XX yüzillər tarixi bir

mərhələ kimi istər Şimalda, istərsə də Cənubda yeni dövr kimi qəbul edilib. Hər iki tayda irəliləmə və çəkilmələr olsa da, müştərək ümumi cəhətlər üstündür. Bu zəmində Cənubda ədəbi hərəkatın mahiyyətinə, inkişaf dinamikasına nəzər yetirəndə bütün ədəbi proses üçün səciyyəvi olan aşağıdakı cəhətləri qeyd etmək lazımdır:

– Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsi ilə rus və Avropa ədəbi ictimai fikrinin mütərəqqi qolları ədəbi hərəkata güclü təsir etdi və bunun əks sədası Cənubda da yeni ədəbiyyatın formalaşmasına təkan verdi.

– Türkiyədə təhsil alıb püxtələşən və oradakı yeni ədəbi cərəyanları farsca yazdıqları şeirə gətirən türkəsilli şairlər ədəbiyyatda yeniləşmə yaratdılar. Şeirə yeni baxış türk dilində yaranan ədəbi nümunələrin məzmun və ifadəsinə təsirsiz qalmadı.

– Ədəbi prosesdə poeziya ədəbi ictimai hadisələrə daha tez reaksiya verdiyi, milli bədii düşüncənin önündə getdiyi kimi bədii axtarışlar mənasında da aparıcı mövqedə olmuşdur.

XX əsrin ictimai, siyasi gedişləri poetik fikrin bütün qollarına təsir etmişdir. Bu qarşılıqlı təsirin sonunda klassik şairlər ənənəvi mövzulardan uzaqlaşaraq sosial və ictimai mövzulara üz tutmuşlar. Xalq şeiri və klassik formada yaranan poeziya ilə yanaşı, təriqət ədəbiyyatı və satirik şeir də davam və inkişaf etmişdir.

Ötən əsrin 40-cı illərindən başlayaraq öndə olan “Həsrət ədəbiyyatı”nın yerini yarım əsrdən sonra özündə kimlik axtarışını ehtiva edən “Dirəniş,müqavimət ədəbiyyatı” tutdu.

Quzey Azərbaycan poeziyası ilə yaxın ünsiyyət şeir dilini sxematizmdən, yersiz belletrizmdən uzaqlaşmağa təkan verdi. Bunlarla yanaşı, Cənub ziyalılarının Avropaya mühacirəti, eləcə də müasir informasiya mübadiləsi Cənub poeziyasında modern şeir axtarışlarını əsas istiqamətlərindən birinə çevirdi.

Yeni ədəbi nəslin yaradıcılığında illər boyunca xalqın nisgilinə çevrilən ana dilinin yasaqlığı, hələ də o taydakı doğmaların həsrəti, milli kimlik kimi dərdlərindən qaynaqlanan səssiz harayları yer alır. Onlar öncəki nəsillərdən fərqli olub, artıq vəsf, çağırış, şüar, tərif, bənzətmə kimi əski qəliblərdən uzaqlaşıb əsərlərində ictimai məzmuna önəm verdilər.

Ədəbi meydana çıxan bu gənc şair və yazıçılar özlərindən

öncəki nəsillərdən fərqli oldu. Bir qismi milli ruh, milli kimliyə söykənən, digər qismi isə Qərb təmayüllü, avanqard şeir yazmağa meyilləndilər. Mövzu bolluğu, fikir sərbəstliyi, ilk sırada üslub çeşidliliyi nəzəri cəlb etməyə başladı.

Cənub poeziyasının gənc nəslini birləşdirən ümumi amil onların vətən, milli dil haqqında eyni mövqedən çıxış etmələridir. Bu poeziyanın məzmunca hüdudları da genişdir. Azərbaycançılıq, turançılıq düşüncəsi yeni Cənub şeirinin ideya zirvəsinə vüsət verməklə yanaşı, onun poetik ifadə imkanlarını, üslub çalarlarını da zənginləşdirir. Quzey Azərbaycan şeirinin üslubi təmayülləri Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz timsalında Cənub şeirinin yeni istiqamətlə formalaşmasında xüsusi yeri olduğu kimi, çağdaş türk şeirinin də mövqeyi hiss olunur. Özəlliklə, Nazim Hikmət şeirinin intonasiyası dərhal duyulur. Digər tərəfdən şairlər Avropa poeziyasının təcrübəsini də mənimsəyir.

Cənubda nəsrin təşəkkülü, inkişaf istiqamətləri xalqın tarixi taleyi ilə bağlı gur ictimai-siyasi hadisələrin fonunda baş vermişdir. Məlum səbəblərdən ilk nümunələri fars dilində yaranan Cənub nəsrini yaradanları qınamaq yersiz olardı. Lakin farsca yazılan bu əsərlərin mərkəzində Azərbaycan türkünün xarakteri, həyat tərzi, Vətən haqqında idealları dayanır. Bu nəsr nümunələrində türk folklorunun bədii fiqurları yad bir dildə milli düşüncə elementi kimi çıxış edir. Bu nəsr nümunələri farsca yazılsa da, Cənubda türk dilində nəsrin formalaşmasına ciddi zəmin oldu.

Təhlillər göstərir ki, son otuz ildə Cənubi Azərbaycan ədəbiyyatında yeni axın və tendensiyaların yaranması böyük bir canlanmaya səbəb olub, ədəbi nəsil bir varis kimi zəngin ədəbi irsə sahib çıxıb onu qoruyur və ədəbiyyatda yeni səhifələr açır.

Beləliklə, son 35 ildə İranda anadilli ədəbiyyatın fəaliyyətini izləsək aşağıdakı nəticəyə gəlmək olar.

– İran İslam İnqilabından üzü bu yana ana dilində təhsil və nəşr imkanlarının məhdudluğuna baxmayaraq bir çox siyasi-mədəni hərəkatlar yaranmışdır.

– Cənubi Azərbaycanda yeni ədəbi nəsil ənənəçilərə və avanqardçılara ayrılır. Bu qolların hər ikisində yazan yazarlar da var.

– Sələflərinin ənənəvi iki, üçdillik mirasını qoruyub daha çox

Avropa dillərindən tərcümə sahəsində təcrübə qazanıblar.

– Əvvəlki illərlə müqayisədə ədəbi tənqid formalaşmışdır.

– İranı və Cənubi Azərbaycanı dünya səviyyəsində tanıdıb məşhurlaşdıran Qulamhüsyn Saidinin ssenariləri və Səməd Behrənginin uşaqlar üçün yazdığı əsərlər sayəsində kino sənəti və uşaq ədəbiyyatı Cənubi Azərbaycanda gəlişməkdədir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**


1. Ana dilin müdafiəçisi // Filologiya məsələləri, – 2007. № 6, – s. 59-63
2. Çağdaş dövrdə Güney Azərbaycan mətbuatı // – Bakı Universiteti Xəbərləri, – 2008. №2, – s. 221-226
3. Bölünmüş xalqın faciəsini ilk dəfə bəyan edən qəzet // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2008. № 1, – s.31-40
4. İranda ədəbi yeniləşmənin öncülü // “Yaxın və Orta Şərq; dünəni, bu günü, sabahı”. Beynəlxalq elmi konfrans (2007-ci il, 24-25 oktyabr), – Bakı: – 2011. –s. 641-643
5. Şəhriyar və “Varlıq” dərgisi // Söz mülkünün Şəhriyarı Şəhriyarın 105 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, – Bakı: – 2011, – s.111-117
6. Bahtiyar Vahabzadenin yaratıcılığında Güney Azerbaycan konusu // I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları, Qafqaz Universiteti, – Bakı: – 13-15 dekabr, – 2012 -ci il, – s.296-299
7. Ömrünü xalqa sərf edən Vətən sevdalısı // Varlıq – Tehran: – 2012. – №3, – s.87-96
8. Türk dünyasının Məmməd Akif Ərsoy, Əhməd Cavad və Mir Mehdi Etimad kimi ünlü ədəbi şəxsiyyətlərinin yaradıcılığında ortaq mövzu // “Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid”. Beynəlxalq konfransın materialları. Qafqaz Universiteti, – Bakı: – 16-18 may, – 2013, – s.333-339.
9. Rəsul Rza və Güney Azərbaycan // ”Azərbaycan Şərqşünaslıq

elminin inkişaf yolları”. Beynəlxalq elmi konfransın materialları, – Bakı: – iyun, – 2013, – s.171-177
10. Cənubda ədəbi proses // Azərbaycan, – 2015. – № 8, – s.165-176
11. Molla Nasrettin’den 14 Yıl Önce Çıkan Türkçe Mizah Qazeti // Varlıq, – Ankara: – 2015, – №3, – s. 61-68
12. Güney Azerbaycan’da Çağdaş Edebî Süreç // – Ankara: Uluslararası Modern Türklük Araştırmaları Dergisi, Ankara Üniversitesi Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü, – 2016. – Mart. – Cilt 13, – sayı 1, – s. 125-140
13. Rza Bərahəninin mühacirət dövrü yaradıcılığında Azərbaycan mövzusu // “Azərbaycan Mühacir ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr”. II Beynəlxalq elmi konfrans, – Bakı: 2016, – 10-11 oktyabr, – s.271-282
14. Türk edebiyyatına, kültürüne büyük manevi katkılar veren bilim adamları // Uluslararası Harpruta Değer Katan Şahsiyetler Sempozyumu Bildirileri, c.II, – Elazığ: – 14-16 Mayıs, – 2016, – s.257-264
15. Qulamhüseyn Beqdeli klassik ədəbiyyatımızın kamil bilicisi // Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri), XXVII c. , – 2016. – №3, – s. 153-160
16. “Köroğlu” destanının Tebriz seçeneğinin karşılıştırmalı analizi // “Köroğlu ve Türk dünyası destan kahramanlari”. VI. Uluslararası Köroğlu sempozyumu Bildiriler Kitabı, – Bolu, Türkiye: – 10-12 Ekim, – 2016, – s.599-609
17. Xalqının bədii salnaməsini yaradan şair // Ədəbi əlaqələr, – 2016. – X c., – s. 281-290
18. İran türklərinin manevi varlığını “Varlık”inda yaşatan Cevat Heyet // Sinop Üniversitesi Sosyal Bilimler Dergisi, –2017.– c. I, – s.2, – Temmuz-Aralık, – s.17-26
19. Güney Azerbaycanlı romantik bir şair, gerçekçi bir gazeteci: Hamid Nutki // Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD), – 2017. c.1, s. 2, – s.16-24
20. Duygu ve ıstıraplarını pandomimlerine yansıtan yazar: Gulamhüseyn Saidi // Asya Studies (Academik Socyal Araşdırmalar Dergisi), – 2017. Number:1, Autumn, – s.43-49

21. Xalqını həm ağladan, həm də güldürən şair // Filologiya məsələləri, – 2018. № 2, – s. 337-342
22. İranda türkçülüyün ideoloqu // Filologiya məsələləri, – 2018. – 4, – s. 276-281
23. İranda türk dilinin tarihi və lehceleri //Yeni Türkiye / Yeni Türkiye Stratejik Araşdırma Merkezi- Ankara; 2018. – № 101, – s. 508-515
24. İlhan Berk ve Habib Sahirin şiirlerinde özgürlük, aşk, baskıya karşı koyma motivleri // Geçmişten Günümüze Manisa. Şehzade II. Mehmet ve Manisa Tarihi – Kültürü – Ekonomisi, – Manisa: Celal Bayar Üniversitesi Rektörlük Basımevi, – c. 2. – 2018, – s.1371-1378
25. Metinle Resim Çalışmalarının Harmonik Tamlığı // V. Uluslararası Çocuk ve Gençlik Edebiyatı Sempozyumu – İstanbul: – 19-20 Ekim, – 2018, – s.203-207
26. Cənubi Azərbaycanda nəsrin formalaşma mərhələləri // Qərbi Kaspi Universiteti, Elmi Xəbərlər, humanitar elmlər seriyası, – 2018. – № 2, – s.53-61
27. Eminent writer of postcolonial literature // Evalution of social changes and historical events based on health, economy and communication in a globalizing world – Bursa: DORA Printing-Publishing Distribution Ltd., – 2019, – p.177-198
28. Xalqının sevgisinə sadiq qalan şair vətəndaş // Müqayisəli ədəbiyyatşünaslıq / AMEA Nizami Gəncəvi ad. Ədəbiyyat İnstitutu, – 2019. – № 2. – s. 246-253
29. Mətbuatın ana dilinin və ədəbiyyatın qorunmasında rolu // − Bakı: Ədəbiyyat Məcmuəsi. Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutunun əsərləri. – 2020.– № 1. – s. 186-193
30. **Место** и роль прессы в истории народа // Научный вестник Крыма № 5, – 2020. –с.26-38
31. İranda Elinin Farsça Derdini Söyler Dili Olmuş Türk Şairi //Uluslararası Şehriyar dil ve edebiyat sempozyumu Atatürk Universitesi Yayınları – Erzurum: – № 2093, – 2021, – s.228-235
32. Pioneer of Southern Azerbaijan Children's Literature – Samed Behrengi, //Bilig, Journal of Social Sciences of the Turkic

World (İndexed in Web of Science and Scopus), - Ankara: – 2022. – № 1, – p. 123-136

Dissertasiyanın müdafiəsi _____ __________ 2022-ci il tarixində saat _________ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı, Hüseyn Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ __________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.05.2022

Kağızın formatı: A5

Həcm: 73120

Tiraj: 100